# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

9 dekabr
2025-ci il,
çərşənbə axşamı
№ 224 (7051)
Qiymәti
60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

## “Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq”

### Donald Tramp İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb

Bax səh. 3



## Azərbaycan Prezidenti Slovakiyada rəsmi səfərdədir




Bax səh. 2

## Qərbi Azərbaycana qayıdış: Tarixi ədalətin bərpası və yeni sülh modeli...

Bax səh. 4

## Yüksəksəviyyəli münasibətlərin yeni səhifəsi

Bax səh. 2

## Azərbaycan - Qırğızıstan: Əməkdaşlıq imkanları genişlənir



Bax səh. 3

## Avropa İttifaqının bu addımı təəssüf doğurur...

Ermənistanda bəzi terrorçuların dövlət tərəfindən himayə olunduğu, hətta onların adlarının “əbədiləşdirilməsi” yeni məsələ deyil. Azərbaycanlılara və türklərə qarşı qanlı terror aktları törətmiş Monte Melkonyana münasibət buna əyani sübutdur. Bu terrorçunun adı Ermənistanda “əbədiləşdirilib”, şəninə abidə də ucaldılıb.

Yeri gəlmişkən, bu hadisə cəmiyyətimizdə haqlı narazılığa səbəb olub. Belə ki, Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasa, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qronoya və Avropa İttifaqın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziçə müraciət ünvanlayıblar. Müraciətdə erməni terrorçu Monte Melkonyanın adını daşıyan Ermənistan Hərbi-idman liseyinin Avropa İttifaqının Hərbi Orta Məktəblər Forumuna qoşulması ilə bağlı xəbərin Azərbaycan ictimaiyyətində geniş çaşqınlıq və narazılıq doğurduğu vurğulanıb. Qeyd edilib ki, təhlükəsizlik, ortaq dəyərlər...

Bax səh. 4

## İranın XİN başçısının Bakı səfəri...




Bax səh. 5

## Şuşada mühüm iclas

Bax səh. 5

## “PULSUZ”un yeri səhv düşəndə...

Bax səh. 6

## Qaradan artıq rəng - Suad Qara!

Bax səh. 6

## Benində nə baş verir?

Bax səh. 7

## Dekabrın 25-dək...



Bax səh. 7

## Təl-Əvivlə Doha arasında yumşalma...



Bax səh. 6

# Azərbaycanla İran arasında əlaqələrin böyük tarixi var

## İlham Əliyev İranın xarici işlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanla İran arasında əlaqələrin böyük tarixinin olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, xalqlarımızın əsrlər boyu bir yerdə yaşaması münasibətlərimizə xüsusi önəm verir. Son dövrlərdə əlaqələrimizin fəallaşmasından məmnunluğunu bildirən dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfərinin, həmçinin digər yüksəksəviyyəli şəxslərin qarşılıqlı səfərlərinin əməkdaşlığımızın daha da genişləndirilməsinə töhfə verdiyini vurğuladı.

Prezident İlham Əliyev ikitərəfli gündəliyimizin geniş olduğunu və bir çox sahələri əhatə etdiyini deyərək, bütün məsələlər üzrə konkret yol xəritələrinin olduğunu bildirdi.

Hökumətlərarası komissiyanın çox uğurla fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı bu xüsusda iqtisadi, ticari, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığa toxundu.

Azərbaycan Prezidenti İran nümayəndə heyətinin səfərinin uğurlu və məhsuldar olacağına əminliyini ifadə etdi.

Qəbula görə təşəkkürünü bildirən Seyid Abbas Əraqçi, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, İranın dövlət başçısının Prezident İlham Əliyevə və Azərbaycana böyük hörməti var. Qonaq Məsud Pezeşkianın İran Prezidenti seçilməsindən sonra ölkəmizlə əlaqələri daha da inkişaf etdirməklə bağlı tapşırıq verdiyini dedi.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi.

Seyid Abbas Əraqçi də öz növbəsində Azərbaycan-İran əlaqələrinin dərin köklərə malik olduğunu vurğulayaraq, münasibətlərimizin daha da dərinləşdirilməsinin əhəmiyyətinə toxundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# "Global Infrastructure Partners" şirkətinin baş icraçı direktoru İlham Əliyevin qəbulunda



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in (GIP) təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) ilə "Global Infrastructure Partners" şirkəti arasında formalaşan tərəfdaşlığı yüksək qiymətləndirərək, fondun şirkətlə birgə "Italo" sürətli dəmir yolu operatoru və London Qatvik Hava Limanı üzrə həyata keçirdiyi investisiyaların uğurlu əməkdaşlıq nümunələri olduğunu dedi. Ölkəmizin uzunmüddətli inkişaf strategiyasına toxunan dövlətimizin başçısı bu xüsusda "Global Infrastructure Partners" ilə tərəfdaşlığın əhəmiyyətini vurğuladı.

Adebayo Oqunlesi ARDNF ilə əməkdaşlığın səmərəli nəticələr verdiyini deyərək, şirkətin idarə etdiyi fondlara yatırdığı sərmayələrin iki qurum arasında etibarlı tərəfdaşlıq modeli formalaşdırdığını bildirdi.

Qonaq rəhbərlik etdiyi şirkətin hava limanları, logistika və nəqliyyat dəhlizlərinin optimallaşdırılması, enerji, o cümlədən bərpaolunan enerji üzrə beynəlxalq təcrübəyə malik olduğunu vurğulayaraq, enerji keçidi, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində Azərbaycanla əməkdaşlıqda marağını ifadə edib.

Görüşdə şirkətin müxtəlif infrastruktur istiqamətlərində həyata keçirdiyi layihələr, qlobal enerji keçidi fonunda formalaşan yeni tendensiyalarla bağlı fikir mübadiləsi aparıldı, süni intellekt texnologiyalarının tətbiqi üzrə beynəlxalq təşəbbüslərdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, 2006-cı ildə yaradılan və 2024-cü ildə dünyanın ən böyük fəal idarəetmə şirkəti olan "BlackRock" tərəfindən satın alınan "Global Infrastructure Partners" hazırda təxminən 189 milyard ABŞ dolları məbləğində aktivləri idarə edir. "BlackRock" isə hazırda təxminən 14 trilyon ABŞ dollarına yaxın həcmdə aktivləri idarə etməklə, qlobal investisiya bazarında aparıcı mövqeyini qoruyur.

# Azərbaycan Prezidenti Slovakiyada rəsmi səfərdədir







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Slovakiya Respublikasına rəsmi səfərə gəlib.

***

Dekabrın 8-də Slovakiyanın paytaxtı Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

***

Rəsmi qarşılanma mərasimindən sonra Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək görüşü olub.

# Yüksəksəviyyəli münasibətlərin yeni səhifəsi

## Azərbaycan və BƏƏ iqtisadi əməkdaşlığın yeni gündəliyini müəyyənləşdirir

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) bir sıra şirkətlərinin rəhbərlərini qəbul edərkən ölkələrimiz yüksəksəviyyəli arasında iqtisadi münasibətlərin inkişafına diqqət çəkərək hazırda yeni imkanların nəzərdən keçirildiyini və tanınmış şirkətlərin bu proseslərdə fəal roluna toxunub. Əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisinə qalxdığını deyən dövlətimizin başçısı iqtisadi münasibətlərin mövcud vəziyyətinin müxtəlif sahələrdə əməkdaşlıq üçün əlverişli zəmin yaratdığını xatırladıb. Xüsusilə də son dövrlərdə intensivləşən iqtisadi təmaslar fonunda enerji infrastrukturu, "yaşıl enerji", investisiyalar, informasiya texnologiyaları, mədən sənayesi və digər sahələrdə ərəb şirkətlərinin investisiyaları üçün əlverişli mühit təmin edilməkdədir.

Görüşdə BƏƏ-nin nüfuzlu şirkətlərinin - "2PointZero", "International Holding Company" və "International Resources Holding"in rəhbərləri Azərbaycanda yaradılmış əlverişli və münbit biznes imkanlarından faydalanmaq niyyətlərini ifadə ediblər. "2PointZero" şirkətinin sədri Şeyx Zayed bin Hamdan bin Zayed Əl Nəhyan qeyd edib ki, BƏƏ Prezidentinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığı genişləndirmək barədə tapşırığına əsasən, biznes icması öz potensial planlarını tərtib edir və praktiki addımların atılması nəzərdə tutulur.

### İqtisadi gündəliyin çoxşaxəli istiqamətləri



Göründüyü kimi, BƏƏ-nin dünya miqyaslı nəhəng korporosiayalarının və iş adamlarının Azərbaycana intensiv xarakter alan səfərləri Bakı-Əbu-Dabi əlaqələrinin strateji tərəfdaşlığının nümunəsi olmaqla, ticarət, iqtisadiyyat, enerji, ətraf mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapıların açılmasını təşviq edir. Müasir iqtisadi gündəliyin geniş və çoxşaxəli istiqamətləri müəyyənləşir. Əgər bir neçə il əvvəl qədər Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi proqramların əsas xətti neft-qaz və enerji sahələrini əhatə edirdisə, son illərdə iqtisadi coğrafiya xeyli genişlənib və qeyri-neft sektorunun bütün istiqamətlərində əlverişli işgüzar təmaslar qurulub və bu əməkdaşlıq dayanmadan irəliləyir.

BƏƏ şirkətləri Azərbaycanın strateji tərəfdaşı kimi enerji və iqtisadi inkişafa töhfə verir. Bu ölkənin nəhəng investoru "Masdar" Azərbaycanda ən potensial investorlardan biridir, şirkət 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb və stansiya ötən il istifadəyə verilib.

"Masdar"la imzalanmış digər sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpaolunan enerji sektorunda böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər. Bundan başqa, "Masdar"la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpaolunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb.

"Masdar" şirkəti azərbaycan şirkətlər ilə birgə Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində işləyir. İnvestisiya planına əsasən, Azərbaycanın bərpaolunan enerji sahəsinə 2 milyard dollardan artıq sərmayə yatırılacaq. Bu iri layihələr nəhəng investisiya portfelinin göstəricisi kimi BƏƏ şirkətlərinin ölkəmizə olan yüksək münasibətini əks etdirir.

Tərəflər digər investisiyayönümlü layihələr üzərində fəal iş aparır və səfər çərçivəsində ölkəmizə gəlmiş nümayəndə heyətlərinin tərkibində nüfuzlu səhmdarların yer alması da bunu təsdiqləyir. Müasir strateji baxış isə əsas etibarilə qeyri-neft bölmələrinə fokuslanıb və hazırda ticari dövriyyədə nəzərə çarpan dinamikanın da əsas hərəkətverici xətti qeyri-neft üzrə əmtəə mübadiləsidir. Qeyri-neft sektorunda ticarət dövriyyəsi 2024-cü ildə 2,24 milyard dollara qədər artıb. Bu, olduqca böyük dövriyyədir və Ərəb dövlətləri blokunda ən böyük göstəricidir.

### Azad ərazilərdə BƏƏ investisiyaları üçün imkanlar

İmkanlar isə daha böyükdür. Mövcud potensialları bir platformada birləşdirən tərəflər müştərək iqtisadi hədəfləri həyata keçirmək üçün daha genişuttumlu Yol Xəritəsi hazırlayıb.

Azərbaycanla BƏƏ arasında qurulmuş uzunmüddətli uğurlu tərəfdaşlığın əsas prioritetləri sırasına azad edilmiş ərazilərdə müxtəlif sahələrdə iş qurmaq, o cümlədən bərpaolunan enerji və turizm infrastrukturlarını inkişaf etdirmək də daxildir. Tərəflər arasında bərpaolunan enerji sahəsində imzalanmış mühüm sazişlər bu istiqamətdə möhkəm hüquqi-iqtisadi baza yaradır. Həmçinin, Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın bu ilin sentyabrında Azərbaycana səfəri çərçivəsində Qarabağdakı işlərlə və sərmayə mühiti ilə yaxından tanış olması və səfərdən sonra ərəb iş adamlarına tövsiyələr verməsi bu istiqamətdə işgüzar fəaliyyət üçün mühüm motivasiya demək idir. Həmçinin, bir neçə ərəb biznes təmsilçisinin də azad ərazilərdə olması Birləşmiş Ərəb Əmirliklərinin Qarabağda sərmayə niyyətlərinin ifadəsi kimi qəbul oluna bilər.

Beləliklə, BƏƏ-nin "2PointZero", "International Holding Company" və "International Resources Holding" şirkətlərinin rəhbərlərinin Azərbaycanın dövlət başçısı tərəfindən yüksək səviyyədə qəbul edilməsi iqtisadi-ticari əlaqələrin yüksək səviyyəyə çatmasına, investisiya üzrə proqramların həlledici mərhələyə daxil olmasına imkan yaradacaq.

*ELBRUS CƏFƏRLİ*



# “Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq”

## Donald Tramp İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb

Azərbaycan müstəqilliyini bərpa etdiyi ilk gündən etibarən mürəkkəb bir geosiyasi reallıqla üz-üzə qaldı. Ermənistanın təcavüzkar siyasəti nəticəsində ölkəmiz uzun illər davam edən müharibəyə cəlb olundu, torpaqlarımız işğal edildi, 1 milyondan artıq vətəndaşımız doğma yurd-yuvasından didərgin düşdü. Azərbaycan nə az nə çox - düz 30 il sülh və ədalət uğrunda mübarizə aparmalı oldu. Məhz bu səbəbdən, sülh Azərbaycan üçün sadəcə diplomatik məqsəd deyil, strateji və tarixi zərurətdir. Üç onillik ərzində Azərbaycan beynəlxalq təşkilatlara, regional strukturlara, qlobal güc mərkəzlərinə müraciət edərək ədalətli sülhün təmin edilməsi üçün bütün hüquqi və diplomatik vasitələri işə saldı - lakin beynəlxalq mexanizmlərin fəaliyyətsizliyi, ikili standartlar və siyasi maraqlar səbəbindən münaqişə uzun müddət ədalətli həllini tapa bilmədi. Nəhayət, 2020-ci ildə Azərbaycan öz gücü, siyasi iradəsi və hərbi imkanları hesabına həm ədaləti, həm də sülhü bərpa etdi. Bu qələbə sadəcə ərazi bütövlüyümüzün təmin olunması deyil, həm də regionda tam yeni bir təhlükəsizlik arxitekturasının yaradılması demək idi. Bu gün Azərbaycan sülhün əsas təminatçısı kimi çıxış edir, bölgədə əməkdaşlıq platformalarını təşviq edir və qlobal sülhün möhkəmləndirilməsi prosesində aktiv rol oynayır.

### ABŞ Prezidenti minnətdarlıq edib...

Həm də bu səbəbdəndir ki, Azərbaycan bütün dünyada sülh təşəbbüslərinə dəstək verir və beynəlxalq sabitliyə töhfə verən liderlərin fəaliyyətini yüksək qiymətləndirir. ABŞ Prezidenti Donald Trampın fəaliyyəti bu mənada təqdirəlayiqdir - son 1 il ərzində müxtəlif regionlarda, o cümlədən Yaxın Şərqdə və Avrasiya məkanında, Afrikada və başqa regionlarda Trampın sülhü təşviq edən real addımları diqqət çəkir. Onun bir ildən az müddətdə 8 müxtəlif münaqişənin dayandırılmasına vasitəçi olması Vaşinqtonun qlobal sülh təşəbbüslərinə yeni dinamika gətirib. Azərbaycanın Trampı Nobel Sülh Mükafatına namizəd kimi göstərməsi məhz bu obyektiv dəyərləndirmədən irəli gəlir. Dekabrın 6-da ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb. Tramp məktubunda bildirib ki, “Nobel Sülh Mükafatına namizədliyimi irəli sürmək üçün Sizin və Baş nazir Paşinyanın birgə məktubunuza görə təşəkkür edirəm. Bizi vacib missiyamızı davam etdirməyə ruhlandıran bu yüksək qiymətə görə dərin minnətdarlığımı bildirirəm. Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq. Davamlı dəstəyinizə görə Sizə bir daha təşəkkür edirəm”.

### Trampın sülh missiyası...

Vurğulandığı kimi, Donald Trampın son bir ildə həyata keçirdiyi diplomatik təşəbbüslər beynəlxalq münasibətlər sisteminə yeni nəfəs gətirdi. Xüsusilə Yaxın Şərqdə, Afrikada, Asiyada uzun illər davam edən qarşıdurmaların yumşaldılması, region ölkələri arasında etimad mühitinin formalaşdırılması və təhlükəsizlik dialoqunun bərpa edilməsi Tramp administrasiyasının əsas nailiyyətləri sırasındadır. Trampın diplomatik xəttinin əsas xüsusiyyətlərindən biri proseslərin uzadılmasına deyil, konkret nəticələrə hesablanmasıdır. Bir il ərzində 8 müxtəlif münaqişənin dayandırılmasına vasitəçilik etmək onun sülhə yönəlik praqmatik yanaşmasını təsdiqləyir.

Bu ilin avqustunda Azərbaycan ilə Ermənistan arasında əldə olunan razılaşma, sülh sazişinin paraflanması da bölgədə yeni geosiyasi reallıq yaratdı. Bu razılaşmanın əldə olunması prosesində ABŞ-ın, xüsusilə də Donald Trampın iştirakı və dəstəyi mühüm rol oynadı. Vaşinqtonun tərəflərə təzyiq göstərmədən, lakin dialoqu təşviq edərək sülh prosesinə töhfə verməsi bu nailiyyətin əsas elementlərindən biri sayılır. Beləliklə, Trampın həyata keçirdiyi siyasət həm Yaxın Şərqdə, həm də Cənubi Qafqazda sabitlik üfüqlərini genişləndirib. Onun sülh təşəbbüsləri qlobal miqyasda sülhə dəstək verən liderlərin fəaliyyətinə yeni nümunə kimi qiymətləndirilir.

Donald Tramp müxtəlif çıxışlarında və diplomatik mövqelərində Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini yüksək dəyərləndirdiyini dəfələrlə bildirib. Bu qiymət yalnız ikitərəfli münasibətlər kontekstində deyil, həm

### Sülhpərvər mövqeyə verilən dəyərli qiymət...

də qlobal səviyyədə Azərbaycanın sülh, təhlükəsizlik və sabitlik istiqamətində həyata keçirdiyi siyasətin tanınmasının göstəricisidir. İlham Əliyevin liderliyi ilə Azərbaycan regionda ədalətli, davamlı və qarşılıqlı hörmətə əsaslanan sülh modelini formalaşdırıb. Tramp bu siyasətin real nəticələr verdiyini açıq şəkildə vurğulayıb. Donald Trampın prezident seçilməsi Azərbaycan - ABŞ münasibətlərinə də yeni dinamika gətirib. Ötən dövr ərzində iki prezident arasında 7 dəfə qarşılıqlı məktub yazışması, bir neçə görüş olub. Bu ilin avqustunda Donald Tramp Prezident İlham Əliyevə hədiyyə göndərib.

Münasibətlərin bu cür yüksək tonda inkişafının ən mühüm məqamlarından biri Prezident İlham Əliyevin sülhpərvər mövqeyinin ABŞ tərəfindən xüsusi olaraq qeyd edilməsidir. Prezident Əliyevin münaqişələrdə dialoqa əsaslanan həll mexanizmlərini dəstəkləməsi Tramp tərəfindən daim yüksək dəyərləndirilib. Beləliklə, iki lider arasında münasibətlər həm də iki ölkənin strateji baxışlarının üst-üstə düşməsi fonunda formalaşmış siyasi reallıqdır. Azərbaycanın regional liderlik mövqeyi və sülhə verdiyi töhfələr ABŞ tərəfindən obyektiv şəkildə dəyərləndirilir.

Azərbaycan üçün sülh həm tarixi ədalətin bərpası, həm də milli inkişaf strategiyasının əsas dayağıdır. Nəticə etibarilə, Trampın sülh təşəbbüsləri ilə Azərbaycanın qlobal prioritetləri üst-üstə düşür və bu uyğunluq iki ölkə arasında münasibətləri daha da gücləndirir.

***P.İSMAYILOV***

# Azərbaycan - Qırğızıstan: Əməkdaşlıq imkanları genişlənir

Ümumi tarixi köklərə, əsrlər boyu mövcud olan dostluğa əsaslanan Azərbaycan - Qırğızıstan əlaqələri bu gün də uğurla inkişaf edir. Hər iki ölkədə həm dövlətlər, həm də cəmiyyətlər səviyyəsində möhkəm tarixi zəmin üzərində qurulan və artıq strateji xarakter alan münasibətlərin daha da dərinləşdirilməsinə böyük siyasi iradə və istək var. Qarşılıqlı münasibətlərin əhatə dairəsi kifayət qədər genişdir. Elə bu günlərdə Prezident İlham Əliyev Qırğız Respublikasının Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən böyük məmnunluq ifadə olunub.

### Yüksəksəviyyəli qarşılıqlı səfərlərin rolu

Dünya praktikasında yaxşı bir ənənə yaranıb - liderlər arasında formalaşan şəxsi münasibətlər dövlətlərarası münasibətlərə də güclü pozitiv impuls verir. Bu mənada deyə bilərik ki, Prezident İlham Əliyevlə Prezident Sadır Japarovun həm ikitərəfli, həm də çoxtərəfli platformalarda sıx təmasda olmaları, bir-birlərinə səmimi münasibət bəsləmələri Azərbaycan-Qırğızıstan əlaqələrinin daha yüksək dinamika ilə irəliləməsinə güclü təsir göstərir. Təsadüfi deyil ki, görüşdə son illərdə ikitərəfli münasibətlərimizin sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu məsələdə yüksəksəviyyəli qarşılıqlı səfərlərin roluna toxunub. Belə təmaslar izsiz ötüşmür. Hər bir görüş qarşılıqlı fəaliyyətin, ünsiyyətin gücləndirilməsi, eləcə də ikitərəfli və çoxtərəfli əməkdaşlığın mühüm məsələlərinin həlli baxımından çox əhəmiyyətlidir. Liderlərin apardıqları müzakirələr və aldıqları qərarların nəticəsidir ki, bu gün Azərbaycan-Qırğızıstan münasibətlərinin gündəliyinin əhatə dairəsi kifayət qədər genişdir. Əməkdaşlıq üçün energetika, nəqliyyat sahələrində böyük potensial mövcuddur. Azərbaycan Qırğızıstanda bərpaolunan enerji üzrə investisiya layihələrində maraqlıdır. Nəqliyyat sahəsinə gəldikdə, həm Qırğızıstanda, həm də Azərbaycanda irimiqyaslı nəqliyyat layihələri, dəmir yolunun tikintisi həyata keçirilir.

Görüşdə Prezident İlham Əliyev Qırğızıstanın Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərinə dəstək verməsinə xüsusi diqqət çəkib. Qalib Azərbaycan bəhs olunan ərazilərin yenidən qurulmasına müharibə başa çatandan dərhal sonra başlayıb. Son 5 ildə bu ərazilərdə çoxsaylı infrastruktiur layihələri həyata keçirilib və yaşayış məntəqələrinin məskunlaşdırılmasına başlanıb. İşğaldan azad olunmuş ərazilərin bərpasında dost ölkələr respublikamızın yanındadırlar və Qırğızıstan da bu sırada yer alır. Dost ölkə tərəfindən Ağdamın Xıdırlı kəndində Ayköl Manas adına tam orta məktəb binası tikilərək istifadəyə verilib. 2025-ci il 3 iyul tarixində iki ölkənin dövlət başçılarının iştirakı ilə məktəbin açılış mərasimi baş tutub. Qeyd edək ki, 528 şagird yerlik tam orta məktəbin təməli 2024-cü ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov tərəfindən qoyulub. Təhsil müəssisəsinin maddi-texniki bazası şagirdlərə biliklərə yüksək səviyyədə yiyələnmək üçün hərtərəfli şərait yaradır.

Qırğızıstanın dost dəstəyi yalnız bu məktəbin inşası ilə bitmir. Görüşdə Azərbaycan Prezidenti Qırğızıstanın dövlət başçısı tərəfindən hədiyyə olaraq 200 yakın işğaldan azad edilmiş ərazilərimizə göndərilməsini də dostluq münasibətimizin təzahürü olduğunu deyib. Ümumiyyətlə, iki ölkə arasında humanitar-mədəni sahədə əlaqələr öz zənginliyi ilə fərqlənir. Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin ucaldılması, Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının salınması və Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin istifadəyə verilməsi bunun əyani təsdiqidir.

### İlk layihənin icrasına start verilib

İki ölkə arasında iqtisadi-ticari sahədə fəal əməkdaşlıq əlaqələrinin qurulması da məmnunluq doğurur. Ticarət dövriyyəsi dəfələrlə artıb. Mütləq rəqəmlər hələ çox böyük olmasa da, potensialın artması tendensiyası mövcuddur. Ötən ilin aprel ayında Sadır Japarovun ölkəmizə səfəri çərçivəsində Azərbaycan-Qırğız İnkişaf Fondunun Nizamnamə fondu haqqında Sazişə əlavənin imzalanması əlamətdar hadisədir. Nizamnamə fondu 4 dəfə - 25 milyon dollardan 100 milyon dollara qədər artırılıb. Bu da onunla şərtlənir ki, çoxlu müraciət var. Verilən məlumata görə müraciətlərin sayı 40-ı ötüb.



Bildirildiyi kimi, ilk layihənin icrasına start verilib. Belə ki, İssık-Kul gölünün sahilində Azərbaycanın maliyyələşdirdiyi beşulduzlu otelin tikintisinə başlanılıb. Bu kimi faktlara istinadən bəri başdan demək mümkündür ki, 100 milyon dollar da son hədd olmayacaq. Görüşdə siyasi qarşılıqlı fəaliyyətin gündəliyinin çox geniş olduğunu deyən Prezident İlham Əliyev hər iki dövlət başçısının qərarı ilə yaradılan Azərbaycan-Qırğızıstan Birgə İnvestisiya Fondu tərəfindən artıq ilk layihələrin maliyyələşdirilməsinə başlanıldığını, bir neçə layihənin isə maliyyələşmə mərhələsində olduğunu qeyd edib. Dövlətimizin başçısı vurğulayıb ki, fondun kapitalının formalaşması üçün ölkəmiz maliyyə vəsaiti ayırıb və layihələrin sayının artacağı təqdirdə, Azərbaycan tərəfindən əlavə vəsait ayrılacaq.

### Mərkəzi Asiya ilə Cənubi Qafqaz regionu daha sıx bağlanacaq

Cari il noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib. Əlamətdar haldır ki, həmin tədbirdə Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına tamhüquqlu üzv kimi qəbul edilməsinə qərar verilib.

Həmçinin Sadır Japarov tədbirdəki çıxışında ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini qətiyyətlə vurğulayıb. Görüşdə ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olduğunu qeyd edən dövlətimizin başçısı buna görə Qırğızıstana və digər ölkələrə minnətdarlığını bildirərək vurğulayıb ki, bu, Mərkəzi Asiya ölkələri ilə Cənubi Qafqaz regionunu daha sıx bağlayacaq, hər iki istiqamətdə fasiləsiz və sabit yükdaşımanın təmin edilməsində, xalqlarımız arasında qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsində öz rolunu oynayacaq.

***Mübariz ABDULLAYEV***

# Qərbi Azərbaycana qayıdış: Tarixi ədalətin bərpası və yeni sülh modeli...

## Yüz minlərlə azərbaycanlının pozulmuş fundamental hüquqları bərpa olunmalıdır

Azərbaycanın tarixi torpaqları sayılan Qərbi Azərbaycandan azərbaycanlıların qovulması, deportasiya olunması son 200 illik tariximizin ən ağrılı məqamlarındandır. Xalqımıza qarşı sistemli şəkildə həyata keçirilmiş bu etnik təmizləmə siyasəti XX yüzillikdə daha da intensiv şəkil alıb. Ən genişmiqyaslı deportasiya isə 1987-1988-ci illərdə reallaşıb. Ermənistan rəhbərliyinin milli ayrı-seçkilik siyasəti nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdlarından zorla qovulub, onların evləri talan edilib, maddi və mənəvi irs məhv edilib. Artıq 30 ildən çoxdur ki, bu insanlar öz doğma torpaqlarına qayıdış həsrəti ilə yaşayır və ata-babalarının yaşadığı əraziləri görmək hüququndan belə məhrumdurlar. Halbuki hər bir insanın doğulduğu torpağa dönmək, orada yaşamaq, öz mülkiyyətinə sahib olmaq ən fundamental beynəlxalq hüquq prinsiplərindən biridir. Ermənistan isə bu təməl insan hüququnu pozmaqla təkcə azərbaycanlılara qarşı deyil, həm də beynəlxalq hüquq normalarına qarşı kobud şəkildə çıxış edir.

Müstəqil Azərbaycan dövləti isə bu ədalətsizliyə son qoymaq, zorla didərgin salınmış soydaşlarımızın hüquqlarını bərpa etmək üçün ardıcıl və sistemli fəaliyyətə başlayıb. 2020-ci ildə başa çatan II Qarabağ müharibəsi regionda yeni siyasi və təhlükəsizlik reallıqları yaratdı. Bu reallıq həm də Qərbi Azərbaycana qayıdış konsepsiyasının hüquqi-siyasi əsaslarını möhkəmləndirdi. Sülh gündəliyinin əsas elementlərindən biri məhz tarixi torpaqlarından deportasiya edilmiş azərbaycanlıların hüquqlarının bərpasıdır. Azərbaycan dövləti artıq bu istiqamətdə institusional baza formalaşdırıb, hüquqi mexanizmləri müəyyən edib və beynəlxalq səviyyədə bu məsələnin tanıdılması üçün ardıcıl addımlar atıb. Qərbi Azərbaycan məsələsi sırf humanitar xarakter daşımır, həm də ədalətin, insan hüquqlarının, tarixi yaddaşın bərpası kimi böyük ümummilli məna kəsb edir. Bu, təkcə keçmişin yox, həm də ölkənin gələcək sülh modelinin mühüm tərkib hissəsidir.



2022-ci ildə Qərbi Azərbaycan İcmasının yaradılması müasir dövr üçün strateji əhəmiyyət daşıyan qərarlardan biridir. Bu İcmanın formalaşdırılması, ilk növbədə, Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqi-siyasi təmsilçiliyini təmin etməyə yönəlib. Təsis olunan İcma, qayıdışla bağlı vahid institut kimi çıxış edərək həm tarixi faktların toplanması, həm də hüquqi əsasların hazırlanması baxımından mühüm missiya daşıyır. Təşkilat 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur. Qərbi Azərbaycanda yüzlərlə yaşayış məntəqəsindən qovulan

### Qayıdış konsepsiyası: mütləq və əhatəli strategiya...

qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, kəndlərin siyahısı işlənib. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlayıb.

İcmanın qəbul etdiyi "Qayıdış Konsepsiyası" isə Qərbi Azərbaycana ədalətli və mərhələli şəkildə qayıdışın məqsədlərini, prinsiplərini və icra mexanizmlərini dəqiq şəkildə ortaya qoyur. Bu sənəd yalnız humanitar xarakter daşımır, həm də beynəlxalq hüququn fundamental müddəalarına söykənir və dövlətlərin öz vətəndaşlarının hüquqlarına təminat verməsi prinsipini əsas tutur.

Konsepsiyada göstərilir ki, qayıdış prosesi mütləq dinc, hüquqi və beynəlxalq mexanizmlər çərçivəsində həyata keçirilməlidir. Bu baxımdan, konsepsiya həm dövlət qurumları, həm də müvafiq beynəlxalq strukturlar üçün yol xəritəsi rolunu oynayır. Sənəddə Qərbi Azərbaycanda yaşayan azərbaycanlılara qarşı həyata keçirilmiş deportasiyalar, onların mülkiyyət hüquqlarının pozulması, mədəni irsinin dağıdılması faktları ayrıca vurğulanır və bu faktlar beynəlxalq hüquq müstəvisində tanıdılmaq üçün sənədləşdirilir. Qərbi Azərbaycan Konsepsiyası əslində uzun illərdir pozulan ədalətin bərpası üçün qəbul edilmiş mütləq və əhatəli strategiyadır. Hələ 2022-ci ilin dekabrında Prezidenti İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olan və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşən zaman bildirmişdi ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik: "Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır".

Qeyd edək ki, İcmanın ötən 3 ildə apardığı əsas fəaliyyət istiqamətlərindən biri təşkilatlanma məsələsidir - bu prioritet istiqamət uğurla inkişaf etdirilib. İcma qısa müddətdə həm ölkə daxilində, həm də xaricdə geniş əlaqələr qurmağı bacarıb. Əsas məq-

### Əsas prioritet: təşkilatlanma, əlaqələrin gücləndirilməsi, məlumatların araşdırılması

səd Qərbi Azərbaycandan deportasiya olunmuş insanların məlumat bazasının yaradılması, onların yaşadıqları kəndlər, mülkiyyətləri, sosial vəziyyətləri, irsi haqqında faktların dəqiq toplanmasıdır. Bu, gələcəkdə qayıdış prosesinin hüquqi və praktiki tərəflərinin hazırlanmasına mühüm zəmin yaradır. İcma bu gün kənd-kənd, icma-icma insanlar arasında əlaqə yaradır, onların hüquqları ilə bağlı məlumatlandırma aparır, tarixi yaddaşın toplanması üçün böyük layihələr həyata keçirir.

Təşkilatlanmış fəaliyyət həm də icmanın beynəlxalq əlaqələrini genişləndirməyi, müxtəlif ölkələrdə yaşayan qərbi azərbaycanlılarla iş aparmağı mümkün edib. Bu proses deportasiya faktlarının təsdiqlənməsi, etnik təmizləmənin sübutlarla sənədləşdirilməsi baxımından vacibdir. İcmanın gördüyü işlər onu göstərir ki, qayıdış prosesi təsadüfi və emosional yanaşmaya deyil, dövlət tərəfindən koordinasiya olunan planlı fəaliyyətə əsaslanır. Qərbi Azərbaycan İcması artıq cəmiyyət daxilində vahid mövqenin formalaşdırılmasına nail olub və bu məsələ ümumxalq gündəminə çevrilib. İcmanın fəaliyyəti həm də deportasiya olunmuş insanların bir araya toplanması, onların sosial və hüquqi ehtiyaclarının araşdırılması, gələcək qayıdış mexanizmləri üçün zəruri məlumatların toplanması baxımından əvəzolunmaz rol oynayır.

### Qərbi azərbaycanlıların qayıdış hüququ beynəlxalq müstəvidə...

Qərbi Azərbaycana qaydış prioritetləri həm də beynəlxalq aləmə təqdim olunmalıdır. Vurğulanmalıdır ki, son illərdə qayıdış məsələsinin beynəlxalq səviyyəyə qaldırılması aparıcı missiyalardan birinə çevrilib. Qərbi Azərbaycan İcmasının qəbul etdiyi sənədlərin BMT sistemində yayılması və beynəlxalq hüquqi sənəd statusu alması bu istiqamətdə ciddi dönüş yaradıb. Bu sənədlərdə deportasiya faktları, insan hüquqlarının pozulması, etnik təmizləmə siyasəti ən yüksək tribunalarda diqqətə çatdırılır. Bu, təkcə tarixi həqiqətlərin təsdiqi deyil, həm də qayıdış hüququnun beynəlxalq səviyyədə tanıdılması baxımından mühüm addımdır. Dünya ictimaiyyəti artıq görür ki, yüz minlərlə azərbaycanlının ən fundamental hüququ pozulub və bu, hüquqi-siyasi yollarla bərpa edilməlidir.

Beynəlxalq təşkilatlarda aparılan işlər həm də Ermənistanın uzun illər boyu yaratdığı saxta görüntüləri ifşa etməyə imkan verib. Azərbaycan tərəfi sübutlarla göstərir ki, deportasiya faktı realdır, azərbaycanlılar zorla öz torpaqlarından qovulub, onların mülkiyyəti yağmalanıb - bu cinayətlərə görə Ermənistan beynəlxalq hüquqi məsuliyyət daşıyır. İcmanın fəaliyyəti, beynəlxalq tədbirlərdə iştirakı, diplomatik dairələrdə təqdim olunan məlumatlar artıq qayıdış məsələsini regional problem olmaqdan çıxarıb, universal insan hüquqları məsələsinə çevirib. Bu, beynəlxalq hüquq müstəvisində yeni presedent yaradır - bir xalqın tarixi torpaqlarına sülh yolu ilə qayıdış hüququ təsdiq olunur. Bütün bunlar Azərbaycanın diplomatik səylərinin, siyasi iradəsinin və institusional fəaliyyətinin real nəticəsidir.

### Yeni mərhələ: qayıdış sülhün möhkəmlənməsi üçün real zəmindir

Regionda yaranan yeni geosiyasi reallıqlar, xüsusilə sülh prosesinin inkişafı qayıdış prioritetlərini praktiki müzakirə mərhələsinə çıxarıb. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində aparılan sülh danışıqları bütün digər detallarla yanaşı həm də deportasiya olunmuş azərbaycanlıların hüquqlarının bərpa edilməsinə yönəlməlidir. Sülh prosesinin dayanıqlı olması üçün bu məsələ fundamental şərtlərdən biridir. Çünki sülh beynəlxalq hüquqla ziddiyyət təşkil edən faktların aradan qaldırılmasını tələb edir. Bu baxımdan Qərbi azərbaycanlıların qayıdışı sülh modelinin ayrılmaz və təxirəsalınmaz tərkib hissəsidir. Prezident İlham Əliyev "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfransın iştirakçılarına müraciətində də bildirib ki, 2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın bir araya gəlməsi, Birgə Bəyannamənin imzalanması və sülh sazişi layihəsinin paraflanması hər iki xalqın gələcək birgəyaşayışının təmin olunması üçün ümid və inam yaradır: "İnanırıq ki, Qərbi Azərbaycan İcmasının sülhsevər üzvləri öz ata-baba yurdlarına qayıdacaq və xalqlarımız arasında mehriban qonşuluq münasibətləri yaranacaqdır".

Qayıdışın həyata keçirilməsi üçün həm hüquqi, həm də təhlükəsizlik mexanizmləri hazırlanmalıdır. İnsanların öz torpaqlarına təhlükəsiz şəkildə qayıtması, mülkiyyətlərinin bərpası, normal həyat şəraitinin təmin olunması Ermənistanın da üzərinə öhdəliklər qoyur. Azərbaycan dövləti artıq konseptual çərçivəni müəyyən edib və qayıdış prosesi davam edən sülh gündəliyinin əsas detalına çevrilib. Qərbi azərbaycanlıların öz yurdlarına qayıtması yalnız tarixi ədalətin bərpası deyil, həm də regionda sülhün və sabitliyin təmin edilməsi üçün əsas şərtdir. Bu, regionun yeni təhlükəsizlik arxitekturasını formalaşdıracaq və Ermənistan üçün də uzunmüddətli inkişaf imkanları yaradacaq. Buna görə də qayıdış prosesi sadəcə humanitar məsələ deyil, həm də geniş regional sülh modelinin elementidir.

Regionda sülhün və sabitliyin gecikməsinin isə bir səbəbi var - Ermənistanın uzun illərdir revanşist ritorika, nifrət siyasəti və etnik ayrı-seçkilik mövqeyindən əl çəkməməsi. Lakin yeni geosiyasi reallıqlar göstərir ki, Ermənistan həm beynəlxalq hüquq, həm də sülh prinsipləri çərçivəsində davranmalı, azərbaycanlıların qayıdış hüququnu tanımalı və bu hüququn təmin olunması üçün real addımlar atmalıdır. Qayıdışın reallaşması sülh sazişi ideyasını məna etibarı ilə daha da möhkəmləndirir - çünki sülh yalnız ədalət bərpa edildikdə möhkəm ola bilər.

*Pərviz SADAYOĞLU*

# Avropa İttifaqının bu addımı təəssüf doğurur...

## Terrorçunun adını daşıyan liseyin Aİ-nin Hərbi Orta Məktəblər Forumuna qoşulmasına niyə yol verilib?

Ermənistanda bəzi terrorçuların dövlət tərəfindən himayə olunduğu, hətta onların adlarının "əbədiləşdirilməsi" yeni məsələ deyil. Azərbaycanlılara və türklərə qarşı qanlı terror aktları törətmiş Monte Melkonyana münasibət buna əyani sübutdur. Bu terrorçunun adı Ermənistanda "əbədiləşdirilib", şəninə abidə də ucaldılıb.

### Vətəndaş cəmiyyəti Aİ-nin rəhbər şəxslərinə müraciət edib

Yeri gəlmişkən, bu hadisə cəmiyyətimizdə haqlı narazılığa səbəb olub. Belə ki, Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasa, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qronoya və Avropa İttifaqın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziçə müraciət ünvanlayıblar. Müraciətdə erməni terrorçu Monte Melkonyanın adını daşıyan Ermənistan Hərbi-idman liseyinin Avropa İttifaqının Hərbi Orta Məktəblər Forumuna qoşulması ilə bağlı xəbərin Azərbaycan ictimaiyyətində geniş çaşqınlıq və narazılıq doğurduğu vurğulanıb. Qeyd edilib ki, təhlükəsizlik, ortaq dəyərlər və məsuliyyətli idarəçilik prinsiplərini qoruduğunu iddia edən Avropa Təhlükəsizlik və Müdafiə Kollecinin himayəsi altında fəaliyyət göstərən Forumun bu qərarı Avropanın dəstəklədiyi bütün platformalardan ədalət və hesabatlılıq gözləyən Azərbaycanın itkin ailələrində Aİ-nin öz prinsiplərinə sadiqliyinə dair ciddi suallar yaradıb.

Bildirilib ki, Cenevrədə BMT Ofisinin qarşısında səssiz aksiya keçirən və onilliklər ərzində yaşadıqları faciəyə dünyanın diqqət ayırmağa başladığını düşünən Qarabağın itkin ailələrinin terrorçu qrup hesab edilən bir qurumun üzvü olan və hərbi cinayətkar sayılan Monte Melkonyanın adını daşıyan məktəbin Aİ-yə bağlı bir Foruma qəbul edilməsindən dərindən məyus olublar. Müraciətdə Monte Melkonyanın 1990-cı illərdə Azərbaycanın Kəlbəcər rayonunda son dərəcə amansız hərbi əməliyyatlarda iştirak etməsinə, ağır cinayətlər törətməsinə baxmayaraq, Ermənistanda hələ də açıq şəkildə qəhrəmanlaşdırıldığı diqqətə çatdırılıb. Onun bu cinayətləri ötən əsrin 70-80-ci illərində Avropanın bir sıra ölkələrində, o cümlədən Fransa, Yunanıstan, Portuqaliya, Danimarka, Avstriya və İspaniyada türk diplomatlara və onların ailə üzvlərinə qarşı terror hücumları həyata keçirən ASALA terror təşkilatı ilə əlaqələrindən sonra törətməsi xüsusi vurğulanaraq, bu faktların M.Melkonyanın uzun müddət militant fəaliyyətlərdə iştirakının bariz göstəricisi olduğu bildirilib.



### Aİ-nin Melkonyana isti münasibəti, yoxsa...?

Melkonyan ASALA terror təşkilatının ASALA-RM (revolutionary movement) qanadının "qurucusu", Birinci Qarabağ müharibəsinin iştirakçısı olub.

O, Xocalı soyqırımı zamanı əsir düşmüş azərbaycanlılara ağır işgəncələr verilməsində də iştirak edib. Bu terrorçu 1993-cü ildə Azərbaycan hərbçiləri tərəfindən Qarabağda öldürülüb.

Ölkəmiz hər zaman erməni terrorçularının Ermənistan tərəfindən "qəhrəmanlaşdırılmasına" etiraz edib. Lakin təəccüblü məqam odur ki, erməni terrorçu Monte Melkonyanın adını daşıyan Ermənistan Hərbi-idman liseyi Avropa İttifaqının Hərbi Orta Məktəblər Forumuna qoşulub. Hansı ki, Melkonyanın "fəal" üzv olduğu və xeyli sayda insanın ölümünə səbəb olan ASALA beynəlxalq miqyasda terror təşkilatı kimi tanınır. Belə olan halda, Avropa İttifaqı (Aİ) bu terrorçunun adını daşıyan liseyin Hərbi Orta Məktəblər Forumuna qoşulmasına necə yol verə bilər?

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri M.Melkonyanın adını daşıyan Hərbi-idman liseyinə forumun üzvlük statusunun verilməsinə dair memorandumun yaxın günlərdə imzalanacağının gözlənildiyini vurğulayaraq, bəzi məsuliyyətsiz Aİ rəsmilərinin bu terrorçunun Azərbaycan xalqı üçün nə ifadə etdiyini bilmədikləri təqdirdə onları M.Melkonyanın Kəlbəcər rayonunun işğalı dövründə çəkilmiş videogörüntülərinə baxmağa çağırıblar.

Müraciətdə, həmçinin Ermənistan tərəfindən Azərbaycan ərazilərinin silahlı işğalında iştirak edən və ciddi hərbi cinayətlərdə təqsirləndirilən şəxslərin, o cümlədən Monte Melkonyanın hələ də qəhrəmanlaşdırılması, Aİ-nin Azərbaycanla bağlı, xüsusilə də ərazi bütövlüyü və dövlət suverenliyinə dair məsələlərdə

### Razılaşma ləğv edilməlidir!

ikili yanaşmanı davam etdirməsi təəssüf hissi ilə vurğulanıb. "Xüsusilə Azərbaycanın itkin düşmüş şəxslərinin ailələri soruşurlar: irsi və fəaliyyəti qətliamlarla əlaqələndirilən Monte Melkonyanın adını daşıyan bir qurum Aİ tərəfindən dəstəklənən bir platformada necə təşviq oluna bilər? Biz Avropa İttifaqını bu hörmətsiz addımı yenidən nəzərdən keçirməyə və terrorçunun adını daşıyan bir qurumla bağlanmış razılaşmanı ləğv etməyə çağırırıq", - deyə müraciətdə qeyd olunub. Müraciəti ünvanlayanlar Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç ilə görüş tələb edərək, Avropa Komissiyasının Monte Melkonyan kimi terrorçunu necə və nə üçün qəhrəmanlaşdırması barədə izahat verməsini tələb ediblər.

Müraciəti Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli, "İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyinin İdarə Heyətinin sədri Əmir Əliyev, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev, "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri Könül Behbudova, "Çapar-Milli İrsin Tədqiqi Mərkəzi" İctimai Birliyinin sədri Dilqəm Əhməd, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Əlizadə, "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Tünzalə Abduləlimova, "Şəhid Analarına Dəstək" İctimai Birliyinin sədri Ceyran Həsənova, Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin sədri Ayaz Mirzəyev və "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri Aqil Camal imzalayıblar.

*Nardar BAYRAMLI*

# İranın XİN başçısının Bakı səfəri...

## Nazirlər hansı məsələləri müzakirə etdilər?

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov dekabrın 8-də ölkəmizdə səfərdə olan iranlı həmkarı Seyid Abbas Əraqçi ilə görüşüb. Nazirlər əvvəlcə təkbətək görüşüblər. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib. Görüşlərdə Azərbaycan-İran ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər, habelə regional və qlobal inkişaflar müzakirə edilib.

Azərbaycan və İran əlaqələrinin təməlində dövlətlərimiz arasında mehriban qonşuluq və qarşılıqlı hörmət, xalqlarımız arasında tarixi, mədəni və dini ortaq köklərin dayandığı ifadə olunub. Eləcə də, iki ölkə prezidentlərinin arasında mövcud olan dostluq münasibətlərinin dövlətlərarası münasibətlərdə mühüm əhəmiyyət daşıdığı, 2025-ci ildə İran Prezidentinin Azərbaycana səfərləri və bu çərçivədə Azərbaycan Prezidenti ilə görüşlərinin əməkdaşlıq əlaqələrimizə yeni təkan verdiyi vurğulanıb.

### Nəqliyyat dəhlizlərinin inkişafı diqqət mərkəzində

Bundan başqa, Xarici İşlər nazirlikləri arasında siyasi və konsulluq məsləhətləşmələrinin, iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının, parlamentlərarası əlaqələrin, eləcə də əhatəli ikitərəfli hüquq-müqavilə bazasının əməkdaşlığımıza dayanıqlı xarakter verdiyi bildirilib. Görüş zamanı iqtisadi-ticarət, enerji-energetika və nəqliyyat-logistika istiqamətləri üzrə əməkdaşlıq məsələləri müzakirə edilib. İki ölkənin iqtisadi potensialının və coğrafi yaxınlığın qarşılıqlı ticarət və investisiya həcmlərinin artırılması üçün əlverişli şərait yaratdığı vurğulanıb.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində birgə fəaliyyətlərin, eləcə də Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni bağlantı layihələrinin regionda tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcəyinə inam ifadə olunub. Ağbənd-Kəlalə arasında yolun və körpünün tikintisinin yekunlaşdırılması istiqamətində səylər məmnunluqla qeyd edilib. Humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunularaq, iki ölkənin prezidentlərinin razılığı əsasında Bakı-Tehran-Bakı və Bakı-Təbriz-Bakı marşrutları üzrə təyyarə reyslərinin artırılması xalqlarımız arasında təmasların təşviqinə töhfəsi qeyd edilib. Elm, təhsil, mədəniyyət, gənclər, idman, səhiyyə və turizm sahələrində əməkdaşlığın gücləndirilməsi imkanları nəzərdən keçirilib.

Beynəlxalq və regional əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycan və İran arasında BMT, UNESCO, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) və digər təşkilatlar, eləcə də 3+3 və bir sıra başqa regional platformalar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq yüksək qiymətləndirilib.

Ceyhun Bayramov həmkarına Azərbaycan-Ermənistan normallaşma prosesi barədə son inkişaflar barədə məlumat verib, bu çərçivədə, Vaşinqton Zirvəsinin nəticələri diqqətə çatdırılıb. Regionda daimi sülhün bərqərar edilməsi və sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılmasının zəruriliyi vurğulanıb. Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri, mina təhlükəsi və keçmiş məcburi köçkünlərin geri qayıdışı barədə qarşı tərəfə məlumat verilib.

### 10 ayda ticarət dövriyyəsinin həcmi 520 milyon dollar olub

Görüşlərdən sonra birgə mətbuat konfransı keçirilib, nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış edib və jurnalistlərin suallarını cavablandırıblar. C.Bayramov bildirib ki, Azərbaycan və İran münasibətləri ali və yüksək səviyyəli səfərlər əlaqələrə ciddi töhfələr verir. Onun sözlərinə görə, ölkələr arasında dərin köklər mövcuddur: "Azərbaycan iki ölkənin dostluq münasibətlərinin inkişafında maraqlıdır. Bu il Azərbaycan və İran münasibətlərinin inkişafı yönündə mühüm il olub". O qeyd edib ki, Azərbaycan ilə İran arasında ikitərəfli siyasi dialoq fəal şəkildə davam edir.

Nazir diqqətə çatdırıb ki, bu il iki ölkə arasında iqtisadi komissiyaların işi təqdir edilib: "Ticarət dövriyyəsi 2024-cü ildə 650 milyon, bu ilin 10 ayında isə 520 milyon dollar olub. Bu gün bu həcmin artırılması istiqamətində addımları müzakirə etdik. Bir sıra layihələrin uğurla həyata keçirilməsi təqdir edildi". C.Bayramov əlavə edib ki, Ağbənd-Kəlalə avtomobil körpüsünün inşası davam edir, gələn il bu tikintinin başa çatması gözlənilir.




### C.Bayramov: Sülhməramlıların Qəzzada iştirakı ilə bağlı yekun qərar yoxdur

Onun sözlərinə görə, ikitərəfli əməkdaşlığa əlavə olaraq həm siyasi, həm də iqtisadi layihələrin icrası baxımından üçtərəfli formatların bir sıra region ölkələri ilə genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb. Nazir bildirib ki, həmkarı ilə Yaxın Şərqdəki proses barədə məlumat mübadiləsi aparıb: "Bir daha qeyd edilib ki, Azərbaycan və İran bölgədə sülhün, sabitliyin tərəfdarıdırlar". C.Bayramov məlumat verib ki, Azərbaycan beynəlxalq stabilləşdirici qüvvələr adı altında Qəzzaya dəvət olunsa da, bu barədə yekun qərar yoxdur. O bəyan edib ki, Qəzzada baş verən proseslər ciddi narahatlıq doğurur: "Bu müstəvidə ABŞ tərəfindən elan edilən Sülh planını müsbət qarşıladıq. Daha sonra BMT TŞ-nın qətnamələri oldu və biz dəstəyimizi verdik. Azərbaycan nadir ölkələrdəndir ki, bütün ölkələrlə müsbət əlaqələri var və bizə inam var. Azərbaycan üçün bu məsələdə sual doğuran məsələlər var. Öz sorğularımızı müvafiq yerlərə ünvanladıq. Burada müxtəlif aspektlər var, mandat, başqa dövlətlər və s. Tərəfimizdən qaldırılan suallara tam cavab yoxdur. Ona görə də Azərbaycan hərbçilərinin orada iştirakı ilə bağlı yekun qərar mövcud deyil".

C.Bayramov əlavə edib ki, iranlı həmkarının bu səfəri iki ölkə arasındakı münasibətlərə daha yaxşı töhfə verəcək. Onun sözlərinə görə, nazirlər icrası başlayan və bitmək üzrə olan layihələr barədə müzakirələr aparıblar: "Ölkə başçısı iqtisadi sahədə olduğu kimi, digər sahələrdə də geniş yol xəritəsinin hazırlanması fikrini səsləndirdi. Həmkarımla bu barədə danışıqlar apardıq və razılaşdıq ki, bunu ən qısa zamanda yerinə yetirməliyik".

### "3+3" formatında növbəti görüşün ölkəmizdə keçirilməsi təklif edilib

Nazir rəsmi Bakının "3+3" regional formatının əvvəl Azərbaycanda, sonra Ermənistanda keçirilməsini təklif etdiyini də diqqətə çatdırıb. O, xatırladıb ki, bu formatın yaradılması təşəbbüsü Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüşdü: "Artıq bu formatda üç dəfə görüş keçirilib. Türkiyədəki görüşün sonunda Azərbaycan tərəfi növbəti görüşün Azərbaycanda keçirilməsini təklif etmişdi. Bildirmişdik ki, Azərbaycanda görüş keçirildikdən sonra biz növbəti görüşün Ermənistanda keçirilməsinə razılıq verəcəyik. Əfsuslar olsun ki, həmin zaman belə bir razılıq əldə olunmadı. Ermənistan tərəfi bu ardıcıllığa öz razılığını bildirmədi. Lakin hesab edirik ki, bu gün fərqli bir mühit mövcuddur. Artıq Ermənistan və Azərbaycan nümayəndə heyətləri bir-birilərinin ərazilərində görüşlərdə iştirak edirlər. Bunları və digər faktorları nəzərə alaraq hesab edirik ki, hazırkı məqamda Ermənistanın Azərbaycanın 2024-cü ildə səsləndirdiyi təklifdən imtina etməyə əsası yoxdur. Ən azından, biz bu məntiqi görmürük. Təklifimiz qüvvədədir".

### Əraqçi: Əlaqələrimizin daha da inkişafını istəyirik

İran XİN rəhbəri Abbas Əraqçi isə deyib ki, Azərbaycan və İran arasında birgə mənafelər çoxdur. Onun sözlərinə görə, Bakıya səfəri iki ölkə arasında əlaqələrin daha da inkişafı üçün vacibdir: "Bu gün danışıqlar, münasibətlər siyasi, iqtisadi, mədəni və digər sahələri əhatə edib. Bu gün Prezident İlham Əliyevlə də görüşüm oldu. Bu görüş çərçivəsində bütün önəmli mövzulara toxunuldu". Nazir İran Prezidentinin Bakıya builki səfərlərini xatırladıb: "Biz də Prezident İlham Əliyevi İranda görməyi səbirsizliklə gözləyirik".

O, həmçinin qeyd edib ki, Azərbaycan və İran XİN-ləri arasında münasibətlər inkişaf etməyə davam edir. Eləcə də "3+3" formatı regionda sülhün və sabitli üçün mühüm rol oynayır. Onun sözlərinə görə, Azərbaycanla İran arasında əməkdaşlıq gələcəkdə də davam edəcək: "Azərbaycanlı həmkarımla Cənubi Qafqaz regionu, "3+3" formatı ilə bağlı müzakirələr apardıq. Bu format regionda sülhün və sabitliyin möhkləmləndirilməsi üçün mühüm rol oynayır".

A.Əraqçi həmçinin bildirib ki, İran Azərbaycanla əlaqələrinin ən yüksək səviyyədə olmasında maraqlıdır: "Biz bunu Azərbaycan tərəfində də görürük. Bu əlaqələrin daha da inkişaf edəcəyinə əminəm. Biz hansısa tərəfin bu münasibətlərə ziyan vurmasına heç bir zaman imkan verməməliyik".

A.Əraqçi onu da qeyd edib ki, İran Azərbaycanla Ermənistan arasında əlaqələrin inkişafını dəstəkləyir: "İran, həmçinin Azərbaycanın təklifinə uyğun olaraq "3+3"ün əvvəlcə Azərbaycanda, daha sonra Ermənistanda keçirilməsini dəstəkləyir".

***Nardar BAYRAMLI***

# Şuşada mühüm iclas

## Qarabağın bərpasında ətraf mühitin rolu...

### Görülən işlər müzakirə olunub

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan infrastruktur layihələri regionun sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Yol, enerji, su-kanalizasiya, bərpaolunan enerji və digər ictimai infrastrukturun bərpası və yenidən qurulması həm həyat şəraitinin yaxşılaşdırılmasına, həm də bölgənin iqtisadi potensialının artırılmasına yönəlib. Lakin bu layihələrin həyata keçirilməsi zamanı ekoloji tələblərin icra vəziyyəti xüsusi diqqət tələb edir, çünki regionun təbii resursları və biomüxtəlifliyi uzun müddət davamlılıq prinsiplərinə əsaslanmalıdır.

Ekoloji tələblər layihələrin planlaşdırılması və icrası mərhələsində müxtəlif sahələri əhatə edir: meşə və yaşıllıq sahələrinin qorunması, su və torpaq resurslarının səmərəli idarə olunması, tullantıların düzgün idarə olunması, "yaşıl enerji" layihələrinin təşviqi. Ekoloji məsələlər üzrə İşçi qrup mütəmadi olaraq layihələrin ekoloji tələblərə uyğunluğunu yoxlayır, monitorinq aparır və lazım gəldikdə əlavə tədbirlər müəyyən edir. Yeni mühafizə olunan təbiət ərazilərinin yaradılması və meşə fondu inventarlaşdırılması regionun ekoloji bərpası istiqamətində önəmli addımlardır.

Dekabrın 5-də Şuşada İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib. İclasda İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Ağdərə, Xocalı, Xocavənd rayonlarında və Xankəndi şəhərində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin nümayəndələri iştirak edib.

İclasda İşçi qrupun üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən və yaşıllıqların götürülməsi zamanı ekoloji tələblərin icra vəziyyəti, yer təkindən istifadə sahəsində görülən işlər müzakirə olunub. Həmçinin filiz, qeyri-filiz, şirin və termal mineral su yataqlarının, kəhrizlərin mövcud vəziyyəti barədə iclas iştirakçılarına məlumat verilib. Eyni zamanda onlardan istifadə perspektivləri, təhlükəsiz bərk tullantıların idarə olunması ilə bağlı görülmüş işlər və bu sahədə idarəetmənin təkmilləşdirilməsi haqqında, bu ərazilərdə ekoloji pozuntuların qarşısının alınması istiqamətində görülən işlər haqqında suallar cavablandırılıb.

İclasda iştirak edən digər qurumların nümayəndələri tərəfindən infrastruktur layihələri həyata keçirilərkən ekoloji icazələrlə bağlı qaldırılan məsələlər və müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər müzakirə edilib.

### Meteoroloji vəziyyətin öyrənilməsi məqsədilə stansiyalar yaradılır

Ekologiya və təbii sərvətlər nazirinin müavini, İşçi qrupunun rəhbəri Vüqar Kərimov bildirib ki, işğaldan azad edilmiş ərazilərdə meteoroloji vəziyyətin öyrənilməsi məqsədilə stansiyalar yaradılır.

O, azad edilmiş ərazilərdə hidrometeoroloji müşahidə şəbəkəsinin yaradılması istiqamətində aşağıdakı işlərin görüldüyünü bildirib: "Hidrometeoroloji müşahidə şəbəkəsinin yaradılması çərçivəsində yerüstü su ehtiyatlarının qiymətləndirilməsi üçün 10 çay üzərində 11 avtomat hidroloji, həmçinin bu ərazilərdə meteoroloji vəziyyətin öyrənilməsi məqsədilə 6 avtomat meteoroloji, 4 radioekoloji və 3 aqrometeoroloji stansiya quraşdırılaraq isifadəyə verilib".

V.Kərimov həmin ərazilərdə geoloji qiymətləndirmə işlərinin yekunlaşdığını qeyd edib: "Eyni zamanda, Zəngilan rayonu ərazisində Cahangirbəyli, Xurama qum-çınqıl yataqlarında, Qubadlı rayonu ərazisində Muğanlı tikinti materialları yataqlarında, Ağdam rayonu Xaçınçay qum-çınqıl yatağında və Qubadlı rayonu ərazisində Muradxanlı qum-çınqıl yatağında geoloji qiymətləndirmə işləri başa çatdırılaraq müxtəlif tikinti və yol infrastrukturlarının qurulması sektorlarında istifadəyə verilib".



### Azad edilmiş ərazilərdə 132 hektar yeni yaşıllıq sahəsi salınıb

Vüqar Kərimovun sözlərinə görə, işğaldan azad edilmiş rayonların planlaşdırma sənədlərinə uyğun olaraq, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli rayonlarının ərazisində ümumilikdə 132 hektar yeni yaşıllıq sahəsi salınıb.

O, bildirib ki, eyni zamanda, meşə fondu ərazilərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi planları çərçivəsində Cəbrayıl, Zəngilan, Qubadlı, Füzuli və Laçın rayonları ərazisində ümumilikdə 408 hektar meşə fondu sahələrində əkin və səpin işləri icra olunub: "Həmçinin, "Azərbaycan-Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi"nin və "Ağıllı Tinglik Təsərrüfatı"nın yaradılması ilə bağlı işlər aparılır. Xüsusilə, Ağdərə, Laçın, Zəngilan və Cəbrayıl rayonlarının ümumilikdə 240 hektar meşə fondu sahələrində meşəbərpa tədbirlərinə başlanılıb, hazırda meşə əkini və səpini işləri davam etdirilir".

***Yeganə***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti üzrə hazırlanmışdır**

# “PULSUZ”un yeri səhv düşəndə...

## Dilin qorunmasına məsuliyyət daşıyan qurumların məsuliyyətsizliyinə nə ad verək?

*Mübariz FEYİZLİ*

Texnologiyaların, internetin inkişafı ilə paralel şəkildə qloballaşmanın da intensivləşməsi günümüzün reallığıdır. Eyni zamanda qloballaşmanın özü ilə bərabər bir sıra fəsadlara yol açdığı da danılmaz faktdır. Qloballaşmadan təsirlənən ən həssas sahələr isə, heç şübhəsiz ki, milli mədəniyyətlər və ayrı-ayrı dillərdir. Belə bir şəraitdə hər bir xalq kimi, biz də əcdadlarımızın yadigarı, milli kimliyimizin göstəricisi olan və müstəqilliyimizin, suverenliyimizin ən mühüm rəmzlərindən biri sayılan Azərbaycan dilinin yad təsirlərdən qorunmasına, daha da saflaşdırılmasına və zənginləşdirilməsinə xüsusi qayğı ilə yanaşmalıyıq. Yeri gəlmişkən, Prezident İlham Əliyev cari il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında dilimizin saflığının qorunmasına növbəti dəfə çağırış edib. “Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Bir məqamı da vurğulamaq yerinə düşər ki,




Azərbaycan dili dünyanın ən gözəl və ən zəngin dillərindən biridir. Dilimizin lüğət tərkibi, qramatik quruluşu mükəmməldir və son dərəcə ifadə gözəlliyi var. Lakin təəssüf doğuran haldır ki, bu gün ölkəmizdə heç də bütün səviyyələrdə Azərbaycan dilinin işlənməsinə və onun saflığının qorunmasına lazımi səviyyədə diqqət göstərilmir. Bir halda xüsusilə də Bakının mərkəzi hissəsində reklam lövhələri əcnəbi dillərdə tərtib olunur, digər hallarda isə qramatik və leksik qaydaları pozulur. Bu isə müvafiq qanunvericiliklə, Konstitusiya ilə Azərbaycan dilinə verilən yüksək dövlət dili statusuna qətiyyən uyğun deyil.

Təqdim olunan foto fakt Azərbaycan dilinə ögey münasibətin əyani təsdiqidir. Belə lövhələrə müxtəlif məkanlarda tez-tez rast gəlmək mümkündür. Adətən, ayrı-ayrı iaşə-ticarət obyektlərinin, istirahət-əyləncə mərkəzlərinin ərazisində belə lövhələr asılır. Bu qəbildən olan lövhələrin asılması daha çox müştəri cəlb etməyə hesablanıb. Bu istək təbii qarşılana bilərdi. Ancaq paytaxt şəhərində hər kəs öz istəyini dil qaydalarını pozmaqla ifadə edə bilməz. İradımız “PULSUZ Wi-Fi BURADA” yazısının məzmunu ilə bağlıdır. Burada “Pulsuz” sözü yerində işlədilməyib. Bu söz tamam fərqli anlam kəsb edir - məsələn, pulsuz insan. Burada söhbət hansısa bir ərazidə internetin ödənişli və yaxud ödənişsiz təklif olunmasından gedir və indiki halda müvafiq reklam lövhəsi sifariş edilərkən, hazırlanarkən “Ödənişsiz Wi-Fi BURADA” yazılmalı idi.

Belə primitiv, savadsız yanaşma və laqeyd münasibətlə qurumlar eyni “uğurla” “pulsuz” sözünü “havayı” sözü” ilə də əvəzləyəyib belə də yaza bilərlər: “Havayı Wi-Fi BURADA”. Ayrı-ayrı iaşə müəssisələrinin, ticarət obyektlərinin, istirahət-əyləncə mərkəzlərinin savadsızlığı və biganəliyi məsələnin yalnız bir tərəfidir. Bəs dilin qorunmasına məsuliyyət daşıyan qurumların məsuliyyətsizliyinə nə ad verək? Axı bu həmin qurumların birbaşa vəzifə borcudur!

# Qaradan artıq rəng - Suad Qara!

*MÜBARİZ*

Rənglər çox olduğu qədər onların insanlara aşıladığı hisslər də fərqlidir. Ümumi olaraq isə xoş, nikbin və pis, bədbin duyğular oyadan rənglərdən bəhs etmək mümkündür. Tarixən bütün yazıçıların, şairlərin, filosofların əsərlərində qara rəng məhz naqis, arzuolunmaz cəhətlərin və keyfiyyətlərin simvolu kimi işlədilib və belə də qəbul olunub. İnsan mentalitetində oturuşub ki, bütün şər qüvvələr məhz gecənin zülmət qaranlığında fəallaşırlar və qorxu, həyəcan yaradan işlərlə məşğul olurlar. Yəni pislik, ziyankarlıq üçün qaradan o tərəfəsi yoxdur. Bəs adını rejissor, ssenarist qoyan Suad Qaranı hansı rənglər kateqoriyasına aid etmək mümkündür? Onun son “yaradıcılığı” belə bir qənaəti ifadə etməyə əsas verir: Qaradan artıq qara rəng elə Suad Qaradır. Suadın soyadının “Qara” olması da xüsusi məna daşıyan bir mistikadır...

Həqiqətən də, onun ssenari müəllifi və rejissoru olduğu “Məhsəti” filmi barədə ancaq qara rəngin “dilindən” və “fəlsəfəsindən” çıxış etməklə mülahizələr irəli sürmək mümkündür. Bu günlərdə Azərbaycan Mədəniyyət Nazirliyinin nəzdindəki Bədii Şura “Məhsəti” qısametrajlı bədii filminin Bakı Film Festivalında nümayişinə qadağa qoyub. Məsələnin məğzi aydın olsun deyə bildirək ki, ekran işində klassik ədəbi-mədəni irsimizdə öz yaradıcılığı ilə xüsusi yer tutan Məhsəti Gəncəvi obrazı ciddi təhrif olunub, etik çərçivələrə etinasız yanaşılıb.

Xatırladaq ki, Məhsəti Gəncəvinin həyatı və yaradıcılığı barədə məlumatlar elə də çox deyil. Ancaq məhdud məlumatlar və yaradıcılığından bizə gəlib çatan nümunələr onun parlaq obrazı barədə konkret təsəvvür yaradır. Əsl adı Mənicə (Mənigə, Munijə) olan şairəyə “Məhsəti” təxəllüsünü Səlcuq hökmdarı Sultan Səncərin verdiyi bildirilir. Rəvayətə görə, Mənicənin qəfildən yağan qar barədə bədahətdən söylədiyi rübai Sultanın diqqətindən yayınmır. Rübaidə Mənicə öz mühitində hamıdan kiçik və görünməz olduğunu ifadə edir. Sultan isə rübainin ifadə gözəlliyini və məzmun zənginliyini nəzərə almaqla belə deyir: “To, meh-həsti” (Sən hamıdan böyüksən)”. Bəzi mənbələr isə “Məhsəti” təxəllüsünü “Böyük xanım” və yaxud “Ay xanım” (“Mah” - ay, “Səti” - xanım” yozumu ilə təqdim edirlər. Bir sıra hallarda isə şairənin hərtərəfli biliklərə malik olması nəzərə alınmaqla onu “Məhsəti Dəbir” adlandırıblar. Məhsəti həmçinin Azərbaycanın ilk qadın şahmatçısı, ilk qadın musiqiçisi və ilk qadın bəstəkarı hesab olunur. O, muğamı bilir, çəng, ud və bərbətdə ifanı bacarırdı. Məhsəti barəsində daha bir müsbət ştrix isə ondan ibarətdir ki, Azərbaycanın xalq rəssamı Güllü Mustafayeva şairənin hamıya tanış olan məşhur rəsmini çəkərək onu xoş ovqat oyadan şair və gözəl Azərbaycan xanımı obrazını canlandırıb. Bütövlükdə, indiyədək Məhsəti barəsində çoxsaylı bədii nümunələr yaradılıb və həmişə də şairə oxuculara müsbət yöndən təqdim olunub.

Və birdən Suad Qaranın “Məhsəti” filmi meydana çıxıb. Bu film isə Məhsətinin parlaq obrazının üstündən sanki qara bir xətt çəkir. Azərbaycan oxucusunun bir sıra nəsillərinin mütaliə etdiyi, dəyərli fikirlər, nəciblik, qadın gözəlliyi kimi duyğular əxz etdiyi Məhsəti Gəncəvi eybəcər, mental dəyərlərimizlə, əxlaq kodeksimizlə bir araya sığmayan, ikrah yaradan bir obrazda təqdim olunur.



Bizim qənaətimiz belədir ki, filmdə əlinə siqaret, qədəh verilən, xəyalından əxlaqsızlıq, eyş-işrət məclisləri keçən qadın Məhsətinin yox, elə müəllif Suad Qaranınn prototipidir. Adətən, hər bir yaradıcı şəxs əsərlərində real faktlarla yanaşı, həm də özünü təqdim edir. “Məhsəti” filmində isə nə tarix var, nə də Şərqin böyük şairəsinin həyatı. Film Suad Qaranın keçirdiyi həyat tərzinin, əhatə olunduğu mühitin, yaşantılarının, hisslərinin və qurduğu xəyalların təqdimatıdır. Suat Qaranın keçirdiyi həyat tərzi barədə xarici mediada çox yazılıb. O, gecə klublarının daimi iştirakçısı, çoxsaylı porno və narko partilərin təşkilatçısı qismində təqdim olunur. Təbii ki, beləleri həm də onda maraqlıdırlar ki, keçirdikləri yüngül həyat tərzinin çevrəsi daha da genişlənsin. İkrah doğuran haldır ki, bundan ötrü o, görkəmli şairənin kölgəsinə sığınmağa çalışıb. Ancaq alınmayıb. Soyadı “Qara” olduğu kimi, çəkdiyi film də onun üzünü qara edib. Bu filmin ən geniş auditoriyası elə onun öz çevrəsi ola bilər...

## ABŞ Yaxın Şərqdə daha bir gərginliyi sakitləşdirir

# Təl-Əvivlə Doha arasında yumşalma...

ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoff Nyu-Yorkda İsrail və Qətər nümayəndələri arasında gizli görüş keçirəcək. Bu barədə məlumatı “Axios” portalı yayıb. Bildirilir ki, görüşdə məqsəd iki ölkə arasında münasibətləri normallaşdırmaqdır. Portalın məlumatına görə, İsrail nümayəndə heyətinə Mossad rəhbəri David Barnea, Qətəri isə yüksək vəzifəli bir məmur təmsil edəcək. “Axios” vurğulayır ki, Nyu-Yorkdakı görüşdə Qəzza zolağındakı vəziyyət və HƏMAS hərəkatının tərksilah edilməsi müzakirə olunacaq.

### İsrail-Qətər gərginliyi: Sentyabrdan bəri ilk dəfə...

Bu mənada, keçiriləcək görüşün əsas mövzusu Qətər-İsrail münasibətlərinin üçtərəfli müzakirəsi ola bilər. Belə ki, yayılan məlumatlara görə, ABŞ, İsrail və Qətər nümayəndələri sentyabr ayında Qətərin paytaxtı Dohaya hava hücumundan sonra münasibətlərin bərpasını müzakirə etmək zərurətinin yarandığı fikrindədirlər. Danışıqlar Qətərin vasitəçiliyi ilə Qəzza müharibəsinə son qoymaq barədə razılaşmadan bəri tərəflər arasında (Qətər və İsrail) ən böyük görüş olacaq.

Xatırladaq ki, Yaxın Şərqdəki iki əsas ABŞ tərəfdaşı arasındakı münasibətlər İsrailin bu ilin 9 sentyabrda Dohada HƏMAS liderlərinə hücum etməsindən sonra xeyli pisləşmişdi. Qeyd edək ki, sentyabrın 9-da İsrail Dohada yerləşən HƏMAS rəhbərliyini hədəf alaraq Qətər ərazisinə hücumlar təşkil etmişdi. Hücum nəticəsində 2024-cü ilin payızında HƏMAS-ın siyasi bürosunun rəhbəri olmuş Xəlil əl-Həyya, təşkilatın siyasi bürosunun rəhbəri Xalid Məşəl və qrupun üzvü Zaher Cabarin həlak olmuşdu. Həmin vaxt rəsmi Doha İsrailin hərəkətlərini pisləyərək, bunu “yaşayış binalarına qorxaqcasına hücum” adlandırmışdı. Qətər Xarici İşlər Nazirliyinin sözçüsü Məcid bin Məhəmməd əl-Ənsari hücumun “beynəlxalq normaların kobud şəkildə pozulması və ciddi təhlükəsizlik təhdidi” olduğunu bildirmişdi. Qətər hakimiyyəti hadisə ilə bağlı araşdırmaya başlamışdı. İsrail Baş naziri Binyamin Netanyahunun ofisi isə əməliyyatın başlanması qərarının 8 sentyabrda Qüds və Qəzzada baş verən terror hücumlarından sonra verildiyini qeyd etmişdi.

### Avropa “iş başında”...

Görüşün digər əsas mövzusu qeyd olunduğu kimi, Qəzza bölgəsindəki tənzimləmənin yeni mərhələsi ilə bağlı olacaq. Qeyd edək ki, Qətərin Baş naziri və xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Əl-Tani Qəzzada atəşkəsin möhkəmləndirilməsi üçün danışıqların hazırda həssas bir mərhələdə olduğunu bildirmişdi. Diplomat qeyd etmişdi ki, vasitəçilər hazırda atəşkəsin növbəti mərhələsini irəlilətmək üçün çox çalışırlar. Bu arada Qəzza bölgəsi ilə bağlı Avropa İttifaqının da mühüm planlarının olması üzə çıxıb - belə ki, Avropa diplomatiyasının rəhbəri Kaya Kallas bildirib ki, Avropa İttifaqı Fələstin polisinin təlimini və Qəzza zolağının sərhəd keçidlərini izləyən Avropa missiyasının genişləndirilməsi variantlarını müzakirə edir.

ABŞ-ın İsraildəki keçmiş səfiri Den Şapiro isə Qətərin HƏMAS-a təzyiq göstərməsinin vacibliyi barədə danışıb. O, bildirib ki, Donald Trampın Qəzza münaqişəsinin həlli planının ikinci mərhələsinin həyata keçirilməsi daha çox Qətərdən asılıdır. Şapiro hesab edir ki, Qətər HƏMAS-ı tərksilah etmək və bölgədə hakimiyyətdən imtina üçün təzyiq göstərməlidir. Diplomat vurğulayıb ki, yalnız Qətər HƏMAS üzərində lazımi təsirə malikdir. O, bu mövqeyi Qətərin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman Əl-Tani ilə müzakirə etdiyini də bildirib.



### Netanyahu Trampla görüşəcək...

Qeyd edək ki, “Axios” xəbər agentliyi mənbələrə istinadən bildirib ki, Donald Tramp 25 dekabrdan əvvəl sülh planının ikinci mərhələsinin başlandığını elan edə bilər. Xatırladaq ki, Trampın sülh planının birinci mərhələsi 10 oktyabrda İsrail və HƏMAS tərəfindən Misir, Qətər, ABŞ və Türkiyə vasitəçilərinin dəstəyi ilə razılaşdırılıb. Razılaşmanın bir hissəsi olaraq, İsrail qoşunları Qəzza zolağının 50 faizdən çoxu üzərində nəzarəti saxlayaraq “Sarı Xətt”ə çəkilib. BMT İnkişaf Proqramı regionun yenidən qurulması üçün təxminən 70 milyard dollar tələb olunacağını təxmin edir.

Bu arada İsrailin Baş naziri Benyamin Netanyahu Qəzza zolağında atəşkəsin ikinci mərhələsinə keçidin yaxınlaşdığını elan edib. O, həmçinin bir neçə həftə ərzində Ağ Evlə bu məsələni müzakirə edəcəyini bildirib. Binyamin Netanyahu bu açıqlamanı Yerusəlimdə jurnalistlərə verdiyi açıqlamada deyib. Görüşdə Almaniya Kansleri Fridrix Merz də iştirak edib.

Baş nazir planın ikinci mərhələsinin həyata keçirilməsini necə təmin edəcəyini müzakirə etmək üçün bu ayın sonunda ABŞ Prezidenti Donald Trampla mühüm danışıqlar aparacağını açıqlayıb.

*SADİQ*

# Dekabrın 25-dək...

## Qəzzada sülh planının ikinci mərhələsi elan ediləcək

Qəzzada təxminən 70 min insanın ölümünə, 170 min nəfərin isə müxtəlif dərəcədə xəsarət almasına, bölgədə infrastrukturun, yaşayış məntəqələrinin tamamilə dağılmasına səbəb olan amansız müharibədən sonra regionda sülh prosesi çətin olsa da, irəliləyir. Oktyabrın 13-də Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitində Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın təşəbbüsü və siyasi iradəsi, həmçinin beynəlxalq birliyin dəstəyi sayəsində sülh razılaşmasının imzalanması bu istiqamətdə atılan çox mühüm addım oldu. Ötən dövrdə atəşkəs müəyyən fasilələrlə pozulsa da, müharibənin intensivliyi artıq arxada qalıb. BMT, vasitəçi ölkələr, bütövlükdə beynəlxalq ictimaiyyət sülhə çağırış edir.

Eyni zamanda, müharibəni bitirmək təşəbbüsünün müəllifi olan Donald Trampın 25 dekabra qədər Qəzzada sülh planının ikinci mərhələsinin başlanacağını elan etməyi planlaşdırdığı haqda xəbərlər yayılıb. Bu barədə "Axios" portalı mənbələrə istinadən xəbər verib. Məlumata görə, Tramp Milad bayramından əvvəl Qəzzada sülh prosesinin ikinci mərhələsinə qədəm qoyulduğunu elan etmək və anklavın idarəçiliyi üçün yeni bir struktur təqdim etmək niyyətindədir. Qeyd edək ki, Donald Tramp sülh prosesini 59 ölkənin dəstəklədiyini bəyan edərək, bunun əhəmiyyətli beynəlxalq dəstək olduğunu vurğulayıb.

### BMT TŞ-nin 15 üzvündən 13-nün dəstəklədiyi plan

Qəzzada əvvəllər də sülh razılaşmasına nail olunmasına cəhdlər edilib. Lakin həmin cəhdlər uğursuz alınıb ki, bunun da əsas səbəbi beynəlxalq həmrəyliyin yetərincə olmamasından qaynaqlanıb. Oktyabrın 13-də başlayan sülh prosesi isə daha uzunmüddətlidir və onun sonadək təmin edilməsinə ABŞ başda olmaqla beynəlxalq birlik, o cümlədən də region dövlətləri israrlı yanaşmalar sərgiləyirlər. Qəzzada sülh planının birinci mərhələsində atəşkəsin əldə edilməsi, əsir və girovların (ölənlərin nəşlərinin qaytarılması da daxil olmaqla) mübadiləsi nəzərdə tutulmuşdu. Bu şərtlər, müəyyən istisnalarla, demək olar ki, təmin olunur. O cümlədən atəşkəsin pozulması hallarının qarşısı da alınır.

Qəzzada sülh və yaxud Tramp planının ikinci mərhələsi noyabrın 17-də BMT Təhlükəsizlik Şurasında (TŞ) qəbul olunan müvafiq qətnamə ilə təsdiqlənib. Təhlükəsizlik Şurasının 15 üzvündən 13-ü, o cümlədən Böyük Britaniya və Fransa qətnamənin lehinə səs verib. Rusiya və Çin bitərəf qalıb, lakin veto qoymaq hüququndan istifadə etməyib. Qətnamədə Fələstin dövlətinin yaradılması perspektivi də qeyd olunur. Bu müddəa ərəb dövlətlərinin təkidi ilə sənədə daxil edilib.

BMT TŞ-də qəbul olunan qətnamə Donald Trampın uyğun təkliflərinə əsasən hazırlanıb. Trampın 20 bəndlik planında müharibənin dərhal sona çatması, İsrail qüvvələrinin razılaşdırılmış xətlərə çəkilməsi, bu prosesdə hava hücumları və artilleriya bombardmanının dayandırılması, bütün əsirlərin (sağ və ya cəsəd) qaytarılması, Qəzzanın demilitarizasiyası və HƏMAS-ın tərk-silahı üçün ərəb dövlətlərinin öhdəlik götürməsi, İordan çayının qərb sahili, Colan təpələri və Qüds məsələsində İsrailin suverenliyinin tanınması kimi məsələlər öz əksini tapıb.



### Qəzza necə idarə olunacaq?

Əsas məsələlərdən biri Qəzzanın idarəçiliyinin təşkili ilə bağlıdır. Münaqişənin çoxillik tarixi nəzərə alınmaqla bu, son dərəcə həssas məsələ kimi dəyərləndirilir. Sülh planının ikinci mərhələsində bunun prioritetliyi nəzərə alınıb. Planda Qəzzanın ən azından yaxın perspektiv üçün idarəçiliyində yerli və beynəlxalq qüvvələrin iştirakçılığının təmin olunması nəzərdə tutulub. Belə ki, ərazi müvəqqəti olaraq texnokrat və qeyri-siyasi bir Fələstin komitəsi tərəfindən idarə olunacaq. Komitəyə beynəlxalq ekspertlərdən ibarət "Sülh Şurası" nəzarət edəcək. Fələstin rəhbərliyi lazımi islahatları tamamlayaraq Qəzzanı nəzarətinə alana qədər zolağın yenidən qurulması və maliyyələşdirilməsi bu qurum tərəfindən idarə ediləcək, HƏMAS və başqa silahlı qruplar Qəzzanın idarəetməsində heç bir rol almayacaq, tunellər və silah istehsalı obyektləri dağıdılacaq, yenidən inşa edilməyəcək. Şuraya Donald Tramp, Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyer və adları sonradan açıqlanacaq başqa tanınmış şəxslər daxil olacaq.

Plana əsasən, Qəzzada yeni Fələstin polisinin yaradılmasını da nəzərdə tutur. İndiyədək Qəzzadakı polis HƏMAS-a tabe idi. HƏMAS üçün bu, silahı təhvil vermək tələbinə bərabərdir.

BMT Təhlükəsizlik Şurasının qətnaməsi Qəzzanın bərpasının maliyyələşdirilməsi mexanizmini də təsdiqləyir. Bu prosesə Dünya Bankının təminatı altında fəaliyyət göstərəcək xüsusi trast fondu nəzarət edəcək.

Sülh planının ikinci mərhələsində həmçinin Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin formalaşdırılması da yer alır. Bu qüvvələr bir neçə ərəb ölkəsinin hərbçilərindən ibarət olacaq və şuranın tabeçiliyində fəaliyyət göstərəcək. Beynəlxalq Sabitləşdirmə Qüvvələri təhlükəsizlik sahəsində vəziyyəti sabitləşdirəcək, Qəzzanın demilitarizasiyasını dəstəkləyəcək, terrorçu infrastrukturunu sökəcək, silahları istifadədən çıxaracaq və Fələstin mülki əhalisinin təhlükəsizliyini təmin edəcək. Bundan əlavə, onların vəzifəsi həm də mülki əhalini və humanitar yardım yollarını qorumaq olacaq. Lakin hələlik Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin tərkibində konkret hansı ölkələrin yer alacağı barədə məlumat verilmir. Bütövlükdə region dövlətlərindən Qətər, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İndoneziya, Türkiyə və İordaniyaya Qəzzada sülh planını dəstəkləyirlər.

*Mübariz FEYİZLİ*

# Benində nə baş verir?

## ECOWAS bu ölkəyə çevik reaksiya qüvvələri göndərir

*N.BAYRAMLI*

Bu günlərdə Afrikanın daha bir ölkəsində dövlət çevrilişinə cəhd baş verib. Belə ki, dekabrın 7-də Benində bir qrup hərbçi ölkədə hakimiyyəti ələ keçirdiklərini bəyan ediblər. Üsyançı hərbçilər dövlət televiziyası olan SRTB-nin efirindən bu bəyanatı veriblər. Bəyanata görə, hərbçilər dövlət qurumlarının buraxıldığını və Patris Talonun prezident vəzifəsindən uzaqlaşdırıldığını elan ediblər. Qeyd olunub ki, keçid dövründə ölkəyə nəzarət polkovnik-leytenant Tiqri Paskalın rəhbərlik etdiyi Hərbi Bərpa Komitəsinə veriləcək. Üsyançı hərbçilər prezidentin iqamətgahını ələ keçirməyə cəhd ediblər.

Lakin qısa müddət sonra üsyançıların hakimiyyəti ələ keçirmələri barədə məlumat təkzib olunub. Beninin xarici işlər naziri "Reuters"ə bildirib ki, çevriliş cəhdi kiçik bir hərbçi qrup tərəfindən edilib, ordunun böyük hissəsi isə hakimiyyətə sadiq qalır. Onun sözlərinə görə, qiyamçılar yalnız dövlət televiziyasına nəzarəti ələ keçiriblər, siqnal bir neçə dəqiqəlik kəsilib.

Hakimiyyəti ələ keçirmək cəhdinin qarşısı Milli Qvardiya bölmələri tərəfindən alınıb. Üsyançılar həbs edilib və konstitusiya quruluşu bərpa olunub.

Benin Prezidenti Patris Talon milli televiziyada xalqa müraciət edib. "Hərbi qulluqçulardan ibarət kiçik bir qrup üsyan törədib və bu, ordumuz tərəfindən dərhal yatırılıb", - deyə dövlət başçısı vurğulayıb. Onun sözlərinə görə,



çevrilişin bütün ocaqları zərərsizləşdirilib və üsyançıların xəyanət aktı cəzasız qalmayacaq. Prezident qeyd edib ki, hakimiyyət ölkədə vəziyyətə tam nəzarət edir. "Vəziyyət tam nəzarət altındadır. Hər yerdə təhlükəsizlik və ictimai asayiş təmin olunacaq", - deyən dövlət başçısı əlavə edib ki, vətəndaşlar gündəlik işləri ilə təhlükəsiz şəkildə məşğul ola bilərlər.

Qeyd edək ki, Benin Respublikası Qərbi Afrikada yerləşir. Bu ölkə 1975-ci ildək Daqomeya adlanıb. Ölkənin Benin və Qvineya körfəzlərinə çıxışı var. Şimalda Burkina Faso və Niger, şərqdə - Nigeriya, qərbdə Toqo ilə həmsərhəddir. Paytaxtı Porto-Novo şəhəri olsa da, hökumət ölkənin ən böyük şəhəri olan Kotonuda yerləşir.

Xatırladaq ki, Benin uzun illər Fransanın müstəmləkəsi olub. Bu ölkə 1893-cü ildən Fransanın müstəmləkəsinə çevrilib. 1904-cü ildə Benin Fransız Daqomeyası adı altında fransız Qərbi Afrikasının tərkibinə daxil edilib. 1946-cı ildə Daqomeya Fransanın dənizaşırı ərazisi statusunu alıb, 1958-ci ildə muxtar respublika kimi fransız cəmiyyətinin tərkibinə daxil edilib. 1 avqust 1960-cı ildən isə indiki Benin Daqomeya Respublikası olaraq müstəqil dövlət elan edilib.

Yeri gəlmişkən, Qərbi Afrika Dövlətləri İqtisadi Birliyi (ECOWAS) bazar günü bir qrup hərbçinin Benində hakimiyyəti ələ keçirmək cəhdini şiddətlə qınayıb. Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi çevriliş cəhdinə cavab olaraq Beninə öz çevik reaksiya qüvvələrini yerləşdirməyə dair qərar verib. "Reuters"in məlumatına görə, artıq təşkilatın hərbi və siyasi rəhbərliyi Beninə çevik reaksiya qüvvələrinin göndərilməsi barədə göstəriş verib. Bununla belə, Beninə hansı ölkələrin qoşunlarının yerləşdiriləcəyi açıqlanmayıb.

# Ağappaq əbədi sükut

## Ernest Heminqueyin "Kilimancaronun qarı" hekayəsi haqqında

əvvəli ötən sayımızda

Harri Smit yazmaq istədiyi ən vacib mətləbləri indiyədək çinədanında saxlayıb, onları həm tənbəlliyindən, həm illər uzunu eyş-işrətə aludə yüngül həyat sürdüyündən, həm də həmin mətləbləri layiqincə yazmaq üçün peşəkarlıq vərdişinə hələ tam yiyələnmədiyini düşündüyündən qələmə almayıb. İndi isə artıq gecdir, əcəl bir cırmağıyla bütün planların üstündən xətt çəkib: "İndi o, əvvəllər günü günə satıb vaxtını uzatdığı, necə lazımsa məhz o cür yazmaqdan ötrü tam öyrənincəyə qədər həmişə gələcək üçün qoruyub saxladığı həmin şeylər barədə heç zaman yazmayacaqdı". Neynək, belədə ən azından məğlubiyyətə uğramaz. Həm də kim bilir, bəlkə lap yazsaydı da heç nə alınmayacaqdı və bəlkə elə bu səbəbdən vaxtı uzadaraq yazmağa heç cür girişmir, niyyətini sonraya saxlayırdı. İndi əsl həqiqəti bilmək də daha heç zaman mümkün olmayacaqdı".

Harri onun başına dolanan, nazıyla oynayan qadını tez-tez incitməkdən qəddar bir zövq alır, onu acılamaqdan təsəlli tapır, başına gəlmiş fəlakətin səbəbini onda görür, Ellenə "bütün günahlar sənin o murdar pullarındadır", "deyəsən mən səni heç vaxt sevməmişəm" kimi sözlər deməkdən belə çəkinmir:

"- Sevgi peyin topasıdır, - Harri dedi, - mən də onun üstünə dırmaşıb banlayan xoruz.

- Əgər sən həqiqətən ölürsənsə, gərək elə hökmən özündən sonra qalan hər şeyin axırına çıxasan, - qadın soruşdu, - yəni sən doğrudan hər şeyi özünlə aparmaq istəyirsən? Yəni sən hökmən atını da, arvadını da öldürməlisən, yəhərini, silahını yandırıb ölməlisən?

- Hə, - o dedi, - mənim silahım sənin o lənətə gəlmiş pulların idi, mən o pulların havasına yəhər üstdə oturmuşdum".

***

Qadın ondan yaşlı, ondan varlı, ondan təcrübəlidir, buna görə də Harrini təmkinlə, nəvazişlə yola verir, onun sağalması üçün canı-dildən çalışır. Yəqin Ellen məşuqunun nədən bunca aqressiv kökləndiyini yaxşı anlayır, yoxsa onun bir batman balla udulması mümkün olmayan sözlərini boğazından keçirməzdi. Söhbət heç can ağrısından da getmir, sadəcə, Harrinin çin olmamış yazıçı xəyalları, həyata keçməmiş ədəbi arzuları qəlbində yara bağlayıb, yaradıcı enerji dağıdıcı enerjiyə çevrilib. "Çevrilib" demək yəqin ki, doğru deyil - onun beyninin bir küncünə qısnanmış yaradıcı mələyin xaraba yurdunu dağıdıcı mələk, yəni iblis həzrətləri zəbt eləyib. Qan qardaşı Frensis Makomber kimi Afrika cəngəlliklərində ana təbiətin günahsız övladlarına zahirən səbəbsiz nifrətlə ölüm saçması da elə həmin o xarabalıq mələyinin təhrikiylədir. Yaradıcı insanın dağıdıcı insana çevrilməyi yaman olur, bu vaxt o, diriliyini başqalarının sevgisində, sevincində, xoşbəxtliyində yox, qorxusunda, nifrətində, faciəsində axtarır: "Heç özüm də baş açmıram ki, niyə belə eləyirəm. Öldürürsən ki, hələ ölmədiyini, yaşadığını hiss edəsən, yəqin belədir..."

Bihudə ötən illərinin qisasını başı bəlalar çəkmiş bir qadından almağa çalışan Harri ömrünə dəymiş hər zərbədə onun barmaq izlərini axtarır, halbuki Ellenin zədələri heç də onun yarasından yüngül deyil, qadın gənc yaşında sevimli ərini, sonra da hava qəzasında cavan oğlunu itirib: "Bəyəm bu, qadının günahıydı ki, zavallının yanına o, tam tükənmiş vəziyyətdə gəlib çıxmışdı? Qadın hardan biləydi ki, ona deyilən sözlərin arxasında heç nə dayanmır və sən o sözləri elə-belə, öz arxayınlığın üçün, adətkərdə olduğuna görə söyləyirsən. Söylədiyi sözlərə hansısa məna verməkdən vaz keçəndə isə qadınlar arasında onun yalanları doğrularından daha yaxşı qarşılanmağa başlamışdı".

Beləliklə, gənc yazıçı qazandığı şöhrəti dəbdəbəyə, işrətə, saxta sevgiyə, qəlp səadətə xərcləyir, öz doğmaca həqiqətini qəlbindən eşiyə atıb can evində sürtük yalanlara iqamət verir: "Pis olan orası deyildi ki, o, yalan danışırdı, yox, pis orasıydı ki, həqiqətin yerində boşluq qalmışdı. O öz ömrünü sürmüşdü, bu ömür çoxdan başa çatmışdı, o isə hələ də yaşamaqda, amma indi başqa adamlar arasında yaşamaqdaydı. İndi pul da kalandı və o, tanıdığı yerlərin ən yaxşılarını seçirdi, təzə məkanlarda da olurdu".

***

Düşdüyü mühit onu yaradıcı işdən ayırsa da, Harri özünü aldatmağa çalışır: guya ruhunun işsiz qalmağı onu narahat eləmir; gah da bununla təskinlik tapır ki, ruhuna yad mühitdə müvəqqəti məskunlaşıb, burada kəşfiyyat işləri aparır, günün birində o mühitdən aralanıb, topladığı materialları sənət əsərinə çevirəcək: "...Özünü aldadırdın ki, guya əvvəllər məşğul olduğun iş heç vecinə də gəlmir, indi artıq çəkmək gücündə olmadığın həmin işə heç tüpürmək də istəmirsən. Özünə isə deyirdin ki, haçansa bu adamlar haqqında yazacaqsan; bu zəngin insanlardan mütləq yazacaqsan; deyirdin ki, sən onların tayfasından deyilsən - sən bu düşərgədə bir casussan; deyirdin ki, bu düşərgədən çıxacaq və onun barəsində yazacaqsan, özü də bu, nə haqda yazdığını bilən birisi tərəfindən həyatda ilk dəfə yazılmış bir yazı olacaqdır. Di gəl, həmin işdən yapışmağa özünü heç cür məcbur edə bilmədi, çünki özündən iyrənə-iyrənə yaşadığı, tam rahatlıq və eyş-işrət içində keçirdiyi günlərin hər biri onun yazmaq səriştəsini kütləşdirir, işləmək meylini zəiflədirdi; axırda da yazmağın daşını biryolluq atdı".

Afrikaya da bundan ötrü gəlmişdi ki, ruhunun havasını dəyişsin, dəbdəbəli şəhərlərdən uzaq yabanı təbiətdən, çox sevdiyi ibtidai həyatdan, sivilizasiyanın vəhşicəsinə təcavüzü qarşısında təbiiliyini hələ də qoruyub saxlamış qara qitədən yeni ilham, yeni təpər alsın: "Bir vaxtlar o, Afrikada həyatının ən gözəl illərini keçirmişdi və indi təzədən bu yerlərə təşrif gətirmişdi ki, hər şeyi yenidən başlasın. Səyahət zamanı çalışırdılar mümkün qədər az komfortdan istifadə etsinlər; məhrumiyyətə dözmək lazım gəlmirdi, amma dəbdəbə-filan da yox idi, ona görə fikirləşirdi ki, yenidən formaya düşəcək, bədənindəki artıq çəkidən xilas olmaq üçün dağlara çəkilib gecə-gündüz məşq eləyən boksçular sayağı o da ruhunun piyini əridəcək".

***

Səyahət qadının da ürəyincədir. O da azı məşuqu qədər həyatsevər, təbiət vurğunu, üstəlik çöl həyatına maraq göstərən mahir ovçu, sərrast atıcıdır: "...Təzə adamlarla ünsiyyətə, hər cür əyləncəyə həvəslə can atan bu qadın qəlbi ehtizaza gətirən, vaxtaşırı şərait dəyişkənliyinə səbəb olan hər şeydən xoşlanırdı, o da özünə təskinlik verirdi ki, içində işləmək həvəsi yenidən güclənəcək. İndi, əgər bu son idisə, - özü isə bunun son olduğunu bilirdi, - onda quyruğu tapdanmış ilan kimi yerində qıvrılmağa, acığından özünü sancmağa dəyərdimi? Bu qadının heç bir şeydə günahı yoxdu. O olmasaydı, yerində bir ayrısı olacaqdı. Əgər bütün ömür yalan içində keçibsə, elə yalan içində də ölmək lazımdır".

Özüylə səmimi olanda Harri boynuna alır ki, ilhamının qurumasını, istedadının soğulmasını ona qəyyumluq eləyən qayğıkeş məşuqəsinin üstünə atmağı həm haqsızlıq, həm də əbəsdir: "Qadının günahı tək bundaydı ki, onun həyatı üçün şərait yaratmışdı. O öz talantını barışığa heç bir ümid yeri qoymadan, özünə, əqidəsinə xəyanət etməklə puça çıxarmışdı; bütün hissiyyatını korşaldan sərxoşluqla, tənbəllik və avaralıqla, nazpərvərdəlik və snobizmlə, şöhrətpərəstlik və təkəbbürlə, hər cür həqiqət və hər cür yalanla onun axırına çıxmışdı... Olmağına talantı, əlbəttə, vardı, bunu danmaq olmaz, intəhası, işləmək əvəzinə o, istedadıyla alver eləmişdi. Heç vaxt belə olmamışdı: bax mən bunu, bunu, bunu eləmişəm; həmişə belə olmuşdu: bax mən bunu, bunu, bunu eləyə bilərdim. Yaşayış üçün gərək olan vəsaiti də yazmaqla yox, başqa üsullarla əldə etməyə üstünlük vermişdi. Axı bu, heç də elə-belə deyildi ki, aşiq olduğu hər yeni qadın əvvəlkindən varlı çıxırdı. Lakin vurğunluq ötüb keçəndə və o, əvvəlkilərin hamısından daha zəngin çıxmış pulunu balta kəsməyən, haçansa əri də, uşaqları da, ona rast gələnəcən lap oynaşları da olan, intəhası, onların heç birində istədiyini tapmayan, onu isə bir yazıçı, bir kişi, bir yoldaş və qiymətli mülkiyyət kimi sevib-əzizləyən bu qadınla olduğutək yalnız yalana üz tutanda, - burası qəribə deyildimi ki, əsla sevmədən, sevgini yalana dəyişməklə o, həmin qadına pullarının əvəzində həqiqətən sevdiyi digər qadınlara verdiyindən daha çox şey verə bilirdi?.."

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# İnsanlığın ən böyük yarası

## Soyqırımlar təkcə insanların həyatını əlindən almır...

Bəzi xalqların tarixinin ən qaranlıq səhifələri müharibələr, işğallar və təbii fəlakətlərlə yanaşı, soyqırımların yaratdığı dərin və sağalmaz yaralarla doludur. Soyqırımlar bütövlükdə dünyanın yaşadığı ən acı hadisələrdən biridir. Bu faciələr təkcə on minlərlə, bəzən milyonlarla insanın həyatını əlindən almır, həm də bir xalqın yaddaşını, mədəniyyətini, tarixinə aid izlərini silməyə yönəlir.

Dekabrın 9-u Beynəlxalq Soyqırımı Cinayəti Qurbanlarının Xatirəsini Anma Günüdür. Bu xatirə günü 1948-ci ildə "Soyqırımı cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" haqqında Konvensiyanın qəbul edilməsi ilə bağlı seçilib. Onun keçirilməsində məqsəd soyqırımı qurbanlarının xatirəsini anmaqla yanaşı, dünya ictimaiyyətinin diqqətini bu ağır cinayətin təqsirkarlarının cəzalandırılması və onların qarşısının alınması məsələlərinə cəlb etməkdir.

BMT Baş Assambleyasında bu qətnaməni səsvermə keçirilmədən qəbul edən 193 üzv ölkə bəyan edib ki, hər bir dövlət ayrıca öz əhalisini soyqırımından qorumaqla mükəlləf olmalıdır. Eyni zamanda, bu cinayətin qarşısının alınması və ona təhrik edənlərin cəzalandırılması da hakimiyyətlərin vəzifəsidir.

## Yaddaşımızda silinməz izlər var...

Xalqımız da son 200 ildə bir çox faciələr və soyqırımlara məruz qalıb. Bu dəhşətli hadisələrdən biri 1918-ci ilin mart-aprel aylarında yaşanıb. Birinci Dünya müharibəsindən sonra Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd ediblər. Daşnak-bolşevik tandemi 1918-ci ilin əvvəllərindən başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planın reallaşdırılmasına başlayıb. 1918-ci ilin mart-aprel aylarında ermənilər tərəfindən törədilən cinayətlər Azərbaycan xalqının yaddaşında da silinməz iz qoyub. Təkcə milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlı məhv edilib. Ermənilər evləri yandırır, insanları diri-diri oda atırdılar. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində xüsusi qəddarlıqla həyata keçirilib. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz torpaqlarından qovublar. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülüb, Şamaxıda 58 kənd dağıdılıb, 7 min nəfər (1653 qadın, 965 uşaq) məhv edilib. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə-yeksan olunub, əhali üzərində yaş və cinsinə məhəl qoymadan qətliam həyata keçirilib.

Ümummilli liderin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verib. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

## Onların taleyi bugünədək məlum deyil...

Ermənilərin törətdikləri digər dəhşətli cinayət - Xocalı soyqırımı Azərbaycan tarixinə ən faciəli səhifələrdən biri kimi daxil olub. Xocalı faciəsi Xatın, Lidisa, Oradur soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı bir hadisədir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək, Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirib. Hücumdan əvvəl, fevralın 25-i axşamdan şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlayıb. Xocalı soyqırımı zamanı şəhərin 5379 nəfər əhalisi deportasiya olunub, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 8 ailə tam məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə valideynlərindən hər ikisini itirib, 613 nəfər, o cümlədən 63 uşaq və 106 qadın işgəncə verilməklə vəhşicəsinə öldürülüb. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.

Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapıb. Dünyanın 13 ölkəsi parlament səviyyəsində, ABŞ-ın 22 ştatı parlament səviyyəsində, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanıyıb. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən edib.

*Yeganə BAYRAMOVA*

# Hər kəsin əlindəki silah...

## Korrupsiyaya qarşı birləşmək vacibdir

*Yeganə BAYRAMOVA*

Dünyanın istənilən ölkəsində korrupsiya yalnız qanunları deyil, həm də insanların dövlətə olan inamını zədələyən görünməz bir xəstəlik kimidir. Korrupsiya elə bir mərəzdir ki, təkcə büdcəyə deyil, ədalət hissinə zərbə vurur. Bu gün korrupsiyaya qarşı mübarizə təkcə hüquq-mühafizə orqanlarının işi deyil, bütün cəmiyyətin ortaq məsuliyyətidir.

BMT-nin təşəbbüsü ilə dekabrın 9-da Korrupsiyaya Qarşı Beynəlxalq Mübarizə Günü qeyd edilir. 2003-cü il dekabrın 9-da Meksikanın Merida şəhərində keçirilən Yüksək Səviyyəli Siyasi Konfransda 2003-cü il noyabrın 1-də BMT Baş Məclisi tərəfindən qəbul edilmiş BMT-nin Korrupsiya Əleyhinə Konvensiyası imzalanmaq üçün açıq elan edilmişdi.




Bu sənədi imzalayan dövlətlər rüşvətləri, büdcə vəsaitlərinin oğurlanmasını və korrupsiya yolu ilə əldə edilmiş gəlirlərin təmizə çıxarılmasını cinayət elan etməyə borcludurlar. Konvensiyanın müddəalarından birinə görə, vəsaitlər korrupsiya nəticəsində hansı ölkədən daxil olmuşdursa, həmin ölkəyə qaytarılmalıdır. 2003-cü il Konvensiyası bu qəbildən ilk sənəddir. Konvensiya korrupsiyaya qurşanan strukturlar, milli rifaha ziyan vurulduğu ölkələr üçün xüsusilə əhəmiyyətlidir.

Bu gün dünyanın bir sıra ölkələrində korrupsiyaya qarşı beynəlxalq mübarizə gününə həsr edilmiş nümayişlər, görüşlər, konfranslar, seminarlar və digər tədbirlər keçirilir.

Qeyd edək ki, Azərbaycanda da "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanun mövcuddur. Bu qanun dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına, qurumlara əhalinin etimadının möhkəmləndirilməsi, peşəkar kadrların dövlət orqanlarında və yerli özünüidarəetmə orqanlarında, qurumlarda qulluğa girməyə həvəsləndirilməsi, həmin şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozma törətməsini istisna edən şəraitin yaradılması məqsədini daşıyır.

Qanunvericiliklə müəyyən edilmiş korrupsiya hüquqpozmalarını törətmiş fiziki şəxslərin hərəkətləri cinayət tərkibi yaratmadıqda, onlar inzibati qaydada cərimə edilirlər. Cinayət tərkibi yaratmayan korrupsiya hüquqpozması törətmiş hüquqi şəxslər qanunla müəyyən edilmiş qaydada cərimə edilir. Cinayət tərkibi yaradan korrupsiya hüquqpozmasına görə hüquqi şəxslər barəsində qanunla müəyyən edilmiş qaydada cərimə və ya digər cinayət-hüquqi tədbirlər tətbiq edilir.

Bu gün korrupsiya ilə mübarizə təkcə dövlət qurumlarının işi deyil, bu, cəmiyyətin hər bir üzvünün üzərinə düşən vəzifədir. Çünki korrupsiya bir nəfərin şəxsi faydası naminə bütün cəmiyyətin hüquqlarını tapdalayır. Nəticədə, cəmiyyətdə haqsızlıq normaya çevrilir, bu da ən təhlükəli proseslərin başlanğıcıdır. Sağlam idarəetmə, ədalətli cəmiyyət və güclü dövlət üçün bu mübarizə davamlı olmalı, hər bir insan öz payına düşən məsuliyyəti dərk etməlidir. Unutmayaq ki, korrupsiyaya qarşı ən böyük silah dürüstlükdür və bu silah hər kəsin əlindədir.

*İdman*

## "Qarabağ" azarkeşlərə müraciət edib

"Qarabağ" UEFA Çempionlar Liqasının əsas mərhələsinin VI turunda Niderlandın "Ayaks" komandasına qarşı keçirəcəyi matçdan əvvəl azarkeşlərə müraciət edib.

"Report" xəbər verir ki, "köhlən atlar" bu barədə sosial şəbəkə hesabında paylaşım edib.

Klub matçı izləmək üçün azarkeşləri stadiona erkən gəlməyə çağırıb.

Bildirilib ki, bu, stadiona rahat daxil olmağa, sıxlıqdan yayınmağa və komandanın isinmə hərəkətlərini tam dolu tribunalar qarşısında həyata keçirərək əlavə motivasiya qazanmasına imkan verəcək.

Oyun başlayandan 20 dəqiqə sonra stadiona giriş məhdudlaşdırılacaq. Qapılar qarşılaşmaya 2 saat 30 dəqiqə (saat 19:15) qalmış açılacaq.

Qeyd edək ki, "Qarabağ" - "Ayaks" matçı dekabrın 10-da, saat 21:45-də Tofiq Bəhramov adına Respublika stadionunda start götürəcək.

## "Neftçi" İdman Klubu və AHİİTA arasında Əməkdaşlıq Memorandumu imzalanıb



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tabe təşkilatı olan Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasında (AHİİTA) bu qurumun və "Neftçi" İdman Klubunun nümayəndələri arasında Əməkdaşlıq Memorandumunun imzalanması məqsədilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, memorandumun məqsədi tərəflər arasında idmanın kütləviləşdirilməsi və sağlam həyat tərzinin təşviqi üçün birgə layihələrin təşkili və icrası, peşəkar kadrların və idmançıların müvafiq sahədəki potensialının daha da gücləndirilməsi üçün təcrübə mübadiləsi, təlim və seminarların keçirilməsi, tərəflərin fəaliyyət istiqamətlərinə aid sosial təşəbbüslərin və digər aidiyyəti fəaliyyətlərin müəyyən edilməsi və dəstəklənməsidir.

Tədbirdə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, birgə idman tədbirlərinin təşkili, idman təşəbbüslərinə qarşılıqlı dəstək, birgə sosial proqramların icrası, idman və digər aidiyyəti qurğulardan qarşılıqlı istifadə, eləcə də təcrübə mübadiləsi və birgə təlimlər istiqamətində müzakirələr aparılıb.

Sonda "Neftçi" İdman Klubu və AHİİTA arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənədi "Neftçi" İdman Klubu İdarə Heyəti sədrinin müavini, icraçı direktor vəzifəsini müvəqqəti icra edən Fərəc Əliyev və AHİİTA-nın direktor müavini, direktor vəzifəsini müvəqqəti icra edən Emin İsmayılov imzalayıblar.

## Dünya çempionatı: Azərbaycanın daha iki boksçusu 1/8 finala yüksəlib



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində kişi boksçular arasında dünya çempionatında 1/16 final mərhələsinin döyüşləri başa çatıb.

AZƏRTAC xəbər verir ki, mundialın beşinci günündə rinqə çıxan Azərbaycan millisinin 2 idmançısı adını növbəti mərhələyə yazdırıb.

Maqsud Xasmetov (63,5 kiloqram) debütdə Pasifik Niyonzima (Ruanda) ilə qarşılaşıb. Boksçumuz rəqibinə üçüncü raundda nokautla qalib gəlib. Xasmetov 1/8 finalda Ruslan Qafurovla (Tacikistan) gücünü yoxlayacaq.

Sərxan Əliyev (71 kq) isə Bonifatsi Maynanı (Keniya) mübarizədən kənarlaşdırıb. Dünya çempionatının bürünc medalçısı rəqibini 4:1 (29:28, 29:28, 28:29, 29:28, 30:27) hesabı ilə məğlub edib. O, 1/8 finalda Arturs Vaisla (Latviya) ilə münasibətinə aydınlıq gətirəcək.

Qeyd edək ki, dünya çempionatına dekabrın 13-də yekun vurulacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2512
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova